RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 32 (8348) CÜMƏ AXŞAMI, 13 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham ƏLİYEV: "İndiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz"



Prezidentin Kürdəmir rayonuna səfəri

## Kürdəmir çox önəmli və böyük potensiala malik olan rayondur

Bax: səh. 2



## Ulu Öndərin abidəsini ziyarət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Kürdəmir şəhərindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

## Prezident İlham ƏLİYEV: "Dördüncü proqram başa çatanda bir dənə də təmirsiz yol qalmamalıdır"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfəri çərçivəsində Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, görülən işlər barədə dövlət başçısına məlumat verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri **Saleh MƏMMƏDOV** dedi:

- Cənab Prezident, Sizin sərəncamlarınıza əsasən son dövrlərdə Kürdəmir rayonunda investisiya xərcləri hesabına 3 yol layihəsi icra olunub.

Həmin layihələrdən birincisi, Pirili-Muradxan-Sor-Sor yoludur



ki, 33 kilometrdir. Öz başlanğıcını 2 nömrəli Bakı-Kürdəmir-Yevlax avtomobil yolundan götürür və respublika əhəmiyyətli Ağsu-Kürdəmir-İmişli yoluna birləşir. İmişli yolunun 184-cü kilometrindən başlayır və 29 kilometr davam edir, 4 kilometr isə Muradxanlı kəndinə gedən qoldur. Yol 4-cü texniki dərəcəyə aiddir. Əvvəllər ona heç yol demək olmazdı, torpaq yol idi. İndi 12 santimetr qalınlığında gözəl asfalt örtüklü yoldur. Bu, 6 yaşayış məntəqəsinin 7 min əhalisinin yol şəraitinin yaxşılaşması deməkdir. Bu fotoşəkillərdə yolun əvvəlki vəziyyəti əks olunub. Bu yol şumlu tarlalardan keçirdi. Bu da eynilə həmin yerlərdə çəkilmiş bugünkü yoldur.

Ardı 2-ci səh.

## Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilib

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən şəhər və rayonlarda Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin, anım mərasimlərinin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların və qurumların iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən sənədli və bədii filmlər nümayiş olunacaq.

Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Həmin gün saat 17:00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.



## Davos bir daha etiraf etdi

### Azərbaycan ardıcıl islahatlar aparan və dinamik inkişaf edən ölkədir

Prezident İlham Əliyev tərəfindən aparılan müstəqil daxili və xarici siyasət uğur qazanmaqda davam edir. Əsas qayəsi ölkəmizin milli maraqları və suverenliyinin qorunması olan bu siyasət dünyanın nüfuzlu beynəlxalq təşkilatları və dövlətləri tərəfindən də etiraf olunur və dəstəklənir.

Məlumdur ki, xarici siyasət daxili siyasətin davamıdır. Daxili siyasətin isə əsas məqsədi ölkənin hərtərəfli inkişafına nail olmaqla vətəndaşların sosial rifahını yaxşılaşdırmaqdır. Son dövrlər ölkədə həyata keçirilən sosial-iqtisadi siyasət məhz bu amala xidmət edir. Xarici siyasətə gəldikdə, burada əsas məsələlərdən biri milli iqtisadiyyatımızın inkişafı üçün beynəlxalq təşkilat və ölkələrlə əməkdaşlıqdır. Bunun sayəsində Azərbaycan xarici investorlar üçün cəlbedici ölkəyə çevrilib.

Ardı 6-cı səh.

## Demokratik seçki nümunəsi

### Səsvermə günü ictimai asayiş daxili işlər orqanları tərəfindən ən yüksək səviyyədə təmin olundu

Demokratik prinsiplər əsasında irəliyə doğru addımlayan Azərbaycanda keçirilən parlament seçkiləri bir çox ölkələr üçün örnək oldu. Seçkilərin demokratik, ədalətli, şəffaf keçirilməsi üçün bütün imkanlardan istifadə edildi və beynəlxalq təşkilatlar yekunda müsbət rəy verdilər.

9 fevral seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsi isə insanların Heydər Əliyev yoluna sədaqətini, bu xəttin layiqli davamçısı İlham Əliyevə dərin etimadını bir daha təsdiq etdi.

### Şəffaf və ədalətli

Parlament seçkilərinin hazırlanması və keçirilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən bütün müvafiq tədbirlər vaxtında həyata keçirildi. MSK-nın gördüyü işlər təqvim planında göstərilən müddətlərdə, vaxtında reallaşdı. Komissiya tərəfindən seçki maarifçiliyinə dair bir sıra tədbirlər keçirildi, müxtəlif vəsaitlər, seçki plakatları çap olunaraq yayıldı. Deputatlığa namizədlərin irəli sürülməsi və imzatoplama kampaniyası Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə həyata keçirildi və nöqsanlarla bağlı qanunamüvafiq qərarlar qəbul edildi. KİV-in və jurnalistlərin fəaliyyətinə hər hansı müdaxilə və təzyiq faktları qeydə alınmadı. O cümlədən vətəndaş cəmiyyəti institutlarının seçkilərin monitorinqinə, müşahidə missiyalarının həyata keçirilməsinə, namizədlərin paytaxt və regionlarda seçicilərlə görüşlərinə və tədbirlərin təşkilinə hər hansı müdaxilə və əngəllər müşahidə edilmədi.

Xatırladaq ki, altıncı çağırış Milli Məclisə seçkilərdə 125 seçki dairəsindən 1314 nəfər namizəd mübarizə apardı. Bu qədər namizədin seçki marafonuna qatılması deputat mandatı uğrunda mübarizənin yüksək rəqabət şəraitində keçməsi ilə müşayiət olundu. Namizədlərlə bağlı statistika isə seçkilərin kifayət qədər demokratik keçirilməsinin əsas təsdiqlərindən biridir.

Ardı 6-cı səh.

# Prezident İlham ƏLİYEV: “Dördüncü proqram başa çatanda bir dənə də təmirsiz yol qalmamalıdır”






Əvvəli 1-ci səh.

İkinci yol layihəmiz 37 kilometr uzunluğunda Karrar-Böyük Kəngərli yolu olub. Bu yol 7 yaşayış məntəqəsinin 6 min əhalisinə xidmət edir. Bu da 70-80 il torpaq yol olub, nə asfalt, nə də çınqıl örtüyü olmayıb. Ötən əsrin 60-cı illərində tikilmiş körpünü də bərpa etmişik.

Üçüncü yol isə Kürdəmiri Ağsu yolu ilə birləşdirir. Bu yol 8 min nəfərin yaşadığı 7 yaşayış məntəqəsinə xidmət göstərir.

Növbəti yol isə başlanğıcını Bakı-Ələt magistralının 197-ci kilometrliyindən götürən Qarasu-Şilyan yoludur. Uzunluğu 14 kilometr olan bu yol da Sizin 2019-cu ildə imzaladığınız sərəncam əsasında tikilib. Bu yolun cəmi 2 kilometrlik hissəsi soyuq asfalt örtüklü olub. İndi asfalt örtüyünün qalınlığı 12 santimetr olan yol çəkilib və 8 min əhaliyə xidmət edir.

**Prezident İlham ƏLİYEV:** Kürdəmir rayonunda yolların təmiri ilə bağlı işlər aparılıb, amma hələ də təqribən yolların 50 faizinin vəziyyəti yaxşı deyil. Biz gərək onları da düzəldək. Qalan yarısını da gərək yaxın bir neçə il ərzində başa çatdıraq.

**Saleh MƏMMƏDOV:** Bu il də sərəncamınız var, cənab Prezident. Kürdəmirdə 18 kilometr uzunluğunda yolun tikintisinə artıq başlanılıb.




Sərəncamlarda həmin yolların tikintisinin 2023-cü ilə qədər başa çatdırılması nəzərdə tutulub.

**Prezident İlham ƏLİYEV:** Bu rayonda, ümumiyyətlə, yol infrastrukturu çox bərbad vəziyyətdədir. Çünki indi Azərbaycanda belə torpaq yollara nadir hallarda rast gəlinir.

**Rayon icra hakimiyyətinin başçısı Ceyhun CƏFƏROV:** Cənab Prezident, təkcə 2019-cu ildə 88,2 kilometr kənd yolları asfaltlanıb.

**Saleh MƏMMƏDOV:** Onun 80 kilometri investisiya xərcləri hesabına, 8 kilometri isə məqsədli büdcə vəsaiti hesabına.

**Prezident İlham ƏLİYEV:** Regional inkişaf proqramında da bu, nəzərdə tutulub. Ona görə dördüncü proqram başa çatanda bir dənə də təmirsiz yol qalmamalıdır.

❖ ❖ ❖

Sonra dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, yeni yol üzərində yol nişanları və göstərici lövhələr, siqnal dirəkləri və avtobus dayanacaqları quraşdırılıb, yol-cizgi xətləri çəkilib. Avtomobil yolunun tikintisi 3 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

# Sahibkarlığın inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir

**Fevralın 12-də Kürdəmir rayonunun Karrar qəsəbəsində “Qlobal Aqro” Məhdud Məsuliyyətli Cəmiyyətinin aqroparkının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Qeyd edək ki, Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün Azərbaycanda sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alırlar. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan səmərəli istifadə mexanizmlərini də üzə çıxarır. Hazırda respublikanın 33 rayonu üzrə 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. 153 min hektar ərazidə ümumi dəyəri 1,1 milyard manat dövlət dəstəyi göstərilmiş 33 aqropark və iri fermer təsərrüfatı birinci mərhələ üzrə fəaliyyətə başlayıb və 109 min hektar ərazidə ümumi dəyəri 1,3 milyard manat dövlət dəstəyi göstərilmiş 18 aqropark və iri fermer təsərrüfatında layihələndirmə və ya tikinti-quraşdırma işləri aparılır. Bu aqropark və iri fermer təsərrüfatlarından 16-sı 2019-cu ildə fəaliyyətə başlayıb.

Aqropark və iri fermer təsərrüfatlarına dövlət dəstəyi tədbirləri çərçivəsində 535 milyon manat, o cümlədən zəruri infrastruktur işlərinə 339 milyon manat dövlət əsaslı vəsaiti qoyulub və ümumi dəyəri 780 milyon manat olan 27 aqropark və iri fermer təsərrüfatının yaradılmasına 196 milyon manat dövlətin güzəştli kreditləri ayrılıb. Bununla yanaşı, 23 aqropark və iri fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihəyə investisiya təşviqi sənədi verilib, 25 milyon manatdan çox vəsaitə qənaət olunub. Ölkəmizdə yeni yaradılan aqroparklardan biri də “Qlobal Aqro” MMC-nin aqroparkıdır.








Müəssisənin rəhbəri Ramazan Mirzəyev dövlət başçısına aqroparkın fəaliyyət istiqamətləri barədə məlumat verdi.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Dövlət başçısına istehsal olunacaq məhsulların nümunələri təqdim edildi. Məlumat verildi ki, “Qlobal Aqro” MMC-nin rayonun Karrar qəsəbəsi və Pirili kəndi ərazisində yerləşən aqroparkı iki min hektar sahəni əhatə edir. Ümumi dəyəri 30 milyon manat olan müəssisənin yaradılmasına 1 milyon manat güzəştli kredit verilib, 8,1 milyon manat dövlət əsaslı vəsaiti qoyulub. O cümlədən ərazidə aparılan meliorasiya işlərinə 7,9 milyon manat, elektrik və qaz təminatının hər birinə 100 min manat vəsait sərf olunub, 600 min manat vəsaitə qənaət edilib. Müəssisədə ölkəmizlə yanaşı, Türkiyə və Belçika şirkətlərinin istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıb. İndiyədək 60 hektar sahənin suvarılması üçün tamburlu suvarma qurğusu, 27 ədəd texnika və aqreqat alınıb. Aqroparkda 18 min tonluq saxlama anbarı və gücü saatda 10 ton olan toxum çeşidləmə - qablaşdırma sahəsi, ofis və laboratoriya binaları, texnika üçün talvar tikilib. Keçən il 942 hektarda arpa, 128 hektarda buğda, 30 hektarda bostan bitkiləri əkilib. Hələlik burada 17 nəfər işlə təmin olunub və yaxın vaxtlarda 60-dan çox iş yerinin yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev müəssisənin imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıqlarını verdi.

# İlham ƏLİYEV: “İndiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmirdə “ASAN xidmət” mərkəzinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlət başçısına məlumat verdilər.

Bildirildi ki, Kürdəmir “ASAN Həyat” kompleksinin tikintisinə 2018-ci ilin iyun ayında başlanılıb. 2020-ci ilin fevral ayında tikinti başa çatıb. “ASAN Həyat” kompleksi üçün ayrılan 2,055 hektar ərazidə inzibati bina, uşaq meydançası, fəvvarə və oturacaqlar, istirahət meydançası, avtodayanacaq, 124 yerlik çay evi, 80 və 108 yerlik yay kafeləri, 64 yerlik yığılıb-sökülən yay kafesi, 12 yerlik kinoteatr, 191 yerlik restoran və “ABAD Food Hall” yaradılıb.

Fasadların tərtibatında ən müasir alman texnologiyasından istifadə edilib.

Kürdəmir “ASAN Həyat” kompleksində videomüşahidə, elektron növbə sistemləri, 4 eskalator, inzibati və kinoteatr binalarının hər birində 1 lift, yanğınsöndürmə, mərkəzləşdirilmiş havalandırma sistemləri, generator, UPS quraşdırılıb.

“ASAN Həyat” kompleksi Kürdəmir rayonunun Atakişili kəndinin cənub-şərq hissəsində inşa edilib. Kompleksin ərazisində 100 avtomobil üçün parklama yeri yaradılıb. Vətəndaşların istirahəti üçün geniş park, uşaq əyləncə meydançası, həmçinin qapalı istirahət zonaları, o cümlədən kinoteatr və kafe istifadəyə verilib.

Diqqətə çatdırıldı ki, mərkəzdə əməkdaşların sayı 259, könüllülərin sayı isə 45 nəfər nəzərdə tutulur. Kompleksdəki regional “ASAN xidmət” mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320 xidmət həyata keçiriləcək. Bu mərkəzdə Kürdəmir, Hacıqabul, Ağsu, Göyçay, Ucar və Zərdab rayonlarında qeydiyyatda olan 540 min 400-dən çox sakinlə yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstəriləcək.



“ASAN Həyat” kompleksinin tərkibində sayca 4-cü “ABAD Food Hall”un fəaliyyətə başlaması nəzərdə tutulur. Burada ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların satış-sərgisi təşkil ediləcək.

Dövlət başçısı mərkəzin açılışını etdi.

Bildirildi ki, fəaliyyətə başladığı vaxtdan “ASAN xidmət” mərkəzlərinə müraciətlər çoxalıb və onun vətəndaşlar tərəfindən bəyənilmə əmsalı daha da yüksəlir. Bu, 2019-cu ildə 99.3 faiz təşkil edib. Həmçinin qeyd edildi ki, indiyədək xarici ölkə vətəndaşlarına elektron qaydada 1 milyon 964 min viza verilib. Təhlillər göstərir ki, Azərbaycana gələn turistlər əvvəlki dövrlərlə müqayisədə ölkəmizdə daha çox qalırlar.

Prezident İlham Əliyev kompleksdə təqdim edilən innovativ yeniliklərlə tanış oldu.

Məlumat verildi ki, Ağıllı sürücülük imtahanı sistemi sürücülük vəsiqəsi almaq üçün müraciət etmiş şəxslərin sürücülük qabiliyyətlərinin qiymətləndirilməsinə dair praktiki test imtahanının avtomatlaşdırılmış şəkildə həyata keçirilməsinə imkan verir. Sürücülük vəsiqəsinin alınması üzrə nəzəri test imtahanında uğur qazanmış şəxslər bu sistemdə qeydiyyatdan keçməklə praktiki test imtahanına yazılır, xüsusi qurğu və avadanlıqlarla təchiz edilmiş avtomobildə əvvəlcədən müəyyən olunmuş marşrut üzrə hərəkət edir. Avtomobil və yol infrastrukturu xüsusi sensor və peyk-müşahidə cihazları ilə təchiz edildiyi üçün imtahan verən şəxs tərəfindən törədilən bütün qayda pozuntuları avtomatik olaraq qeydə alınır və mərkəzi imtahan sisteminə ötürülür. Avtomatlaşdırılmış imtahan sistemi şəxsin praktiki imtahandan uğurla keçib-keçmədiyinə dair real vaxt rejimində arayış hazırlayır.

Ardı 3-cü səh.

# İlham ƏLİYEV: "İndiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz"

*Əvvəli 2-ci səh.*












Diqqətə çatdırıldı ki, "ASAN xidmət" mərkəzlərində vətəndaş müraciətlərinin səmərəliliyinin artırılması və hər bir vətəndaşa fərdi yanaşmanın təmin edilməsi məqsədilə "ASAN rəqəmsal sinir sistemi" platforması hazırlanıb. Platforma hər bir vətəndaşın fiziki və ya elektron dövlət xidmətlərindən istifadəsinə, şikayət və təkliflərinə dair məlumatları vahid bazada toplayır və vətəndaşın dövlət xidmətlərindən istifadə vərdişləri barədə ətraflı məlumatları real vaxt rejimində əks etdirir. Eyni zamanda, bu platforma "ASAN xidmət" əməkdaşları barədə də bütün məlumatları bir yerə cəmləməklə onların performanslarını qiymətləndirməyə, analitik təhlillər aparmağa və vətəndaş-dövlət xidməti-dövlət qulluqçusu münasibətlərini vizuallaşdırmağa imkan verir.

Prezident İlham Əliyevə dövlət satınalmalarının vahid internet portalı barədə də məlumat verildi. Qeyd edildi ki, bu portal dövlət satınalmalarının vahid platforma üzərindən elektron mühitdə həyata keçirilməsinə imkan verən platformadır. Portalın əsas məqsədi satınalma prosesinin təkmilləşdirilməsi və operativliyin artırılması, eyni zamanda, prosesin təşkili zamanı dövlət-özəl sektoru əməkdaşlığının təmin edilməsidir. Satınalma prosesinin bütün mərhələləri - tenderin elan edilməsi, təkliflərin qəbulu və qiymətləndirilməsi, müqavilələr və hesab-fakturaların formalaşması tamamilə elektron mühitdə həyata keçirilir. Həmçinin satınalma prosesinin sürətlə aparılması üçün müvafiq dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya həyata keçirilib. Platformanın yaradılması satın alan və podratçı tərəfindən xərclərin azalması ilə bərabər, beynəlxalq reytinqlərdə də ölkəmizin mövqeyinin yaxşılaşmasına təsir edəcəkdir.

Tanışlıq zamanı dövlət başçısına "ASAN Tranzit" Sistemi barədə də ətraflı məlumat verildi. Bildirildi ki, bu sistem ölkəyə daxil olan tranzit yük avtomobillərinin qanunvericilikdə mövcud olan ödənişləri (vergi, rüsum və s.) əvvəlcədən ödəməsinə imkan verən və məlumatları real vaxtda müvafiq informasiya sistemlərinə ötürən platformadır. Dövlət sərhədinə yaxınlaşmadan öncə avtomobilin sürücüsü və ya avtomobilin qeydiyyatda olduğu şirkət sürücü və avtomobil barədə məlumatları sistemə daxil etməklə müvafiq ödənişləri həyata keçirir və ödəmənin təsdiqinə dair elektron sənəd əldə edir. Bu sistem yük avtomobillərinin ölkəyə daxil olduğu zaman əlavə dayanmaların qarşısını almaqla ödənişlərin bir nöqtədə toplanmasına imkan verir. Sistemin imkanları, həmçinin ölkəmizin beynəlxalq tranzit yükdaşımaları zamanı üstünlük verilən marşruta çevrilməsinə və proseslərin səmərəliliyinin artmasına şərait yaradır.

❖ ❖ ❖

Sonra ASAN könüllüləri reallaşdırdıqları layihələr barədə məlumat verdilər.

ASAN könüllüsü **Emiliya BAYRAMOVA** dedi:

- Möhtərəm cənab Prezident, Kürdəmir regional "ASAN xidmət" mərkəzinə xoş gəlmisiniz. Mən artıq 3 ildən çoxdur ki, "ASAN Könüllüləri" Təşkilatında fəaliyyət göstərirəm. Cənab Prezident, əvvəlcə 2020-ci ili bizim ilimiz elan etdiyiniz üçün bütün ASAN könüllüləri adından Sizə dərin təşəkkürümüzü bildiririk.

Bu gün biz Sizə ASAN könüllülərinin fəaliyyəti haqqında məlumat verəcəyik. Cənab Prezident, Sizin dəstəyiniz və xeyir-duanızla 15 nəfərlə fəaliyyətə başlayan ASAN könüllülər hərəkatının artıq 22 mindən çox məzun könüllüsü var. "ASAN xidmət" mərkəzlərində könüllülük fəaliyyəti iki mərhələdən ibarətdir. Birinci mərhələdə könüllülər müxtəlif sənədləşmə prosedurlarında, dövri rəy sorğularında, xidmətyönümlü təlimlərdə və mərkəzlərin ümumi fəaliyyətində yaxından iştirak edirlər. Növbəti mərhələdə isə onlar artıq öz ixtisaslarına uyğun olaraq müxtəlif təcrübələrə cəlb olunurlar.

Cənab Prezident, təbii ki, fəaliyyətimiz bununla yekunlaşmır. ASAN könüllülərinin işlə təmin olunmasına dəstək məqsədilə "ASAN kadr" karyera mərkəzini yaratmışıq. Karyera mərkəzi daxilində asankadr.az veb-portalı mövcuddur ki, könüllülər və işəgötürənlər arasında körpü rolunu oynayır. Bugünədək portal vasitəsilə 1400 ASAN könüllüsü işlə təmin olunub, onlardan 446-sı isə "ASAN xidmət" mərkəzlərinin əməkdaşlarıdır.

Cənab Prezident, xüsusilə qeyd edim ki, asankadr.az veb-portalı artıq BMT-nin Könüllülər Proqramına uğurlu layihə kimi daxil edilib.

Sonda mən vurğulamaq istərdim ki, Sizin bizə daimi dəstəyinizə cavab olaraq dövlətimizin dayanıqlı inkişafı üçün daha səylə çalışacağımıza söz veririk. Diqqətiniz üçün təşəkkür edirəm, könüllülərin könlü daim Sizinlədir.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol, təşəkkür edirəm.

ASAN könüllüsü **Rza ƏLİYEV** dedi:

- Möhtərəm cənab Prezident, Ali Baş Komandan, əvvəla Sizi salamlayıram. Mən "ASAN Könüllüləri" Təşkilatının əməkdaşıyam. "ASAN Könüllüləri" Təşkilatı fəaliyyətə başladığı ilk dövrdən vətənpərvərlik mövzusunda layihələrin həyata keçirilməsinə xüsusi önəm vermişdir. Sizin bizimlə görüşlərinizdə daim vurğuladığınız kimi, Azərbaycan gəncliyi milli, vətənpərvər ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə olunmalıdır. Biz də Sizin bu fikirlərinizi rəhbər tutaraq dövlətimizin bu sahədə gördüyü işlərə dəstək olmaq məqsədilə 92 layihə, 5 hərbi vətənpərvərlik düşərgəsi həyata keçirmişik. Bu layihələrdə ümumilikdə 9 minə qədər gənc iştirak edib. Genişmiqyaslı layihələrdən "Hərbiyyə" hərbi-vətənpərvərlik düşərgəsi və "Əsgərə məktub" layihələrini misal göstərmək olar. "Hərbiyyə" düşərgəsi ümumilikdə 5 dəfə keçirilib və 500-ə qədər gənc bu layihələrdə iştirak edib. Marağın həddən artıq çox olması 2019-cu ildə bu layihəni 3 dəfə keçirməyimizə səbəb oldu. Diqqətinizə çatdırmaq istəyirəm ki, bu düşərgədə gənclər ilkin hərbi təcrübəyə cəlb olunur, hərbi hazırlıqlar keçirlər.

Şanlı Aprel zəfəri zamanı bizim təşəbbüsümüzlə yaranan "Əsgərə məktub" layihəsi isə dövlətimiz tərəfindən hər bir maddi, hərbi resursla təmin olunan əsgərlərimizə mənəvi dəstək göstərmək məqsədilə yaranıb və hazırda da davam etməkdədir. Cəbhə bölgəsində xidmət edən əsgərlərimizə vətəndaşlarımız tərəfindən yazılmış 80 minə qədər məktub çatdırılıb.

Cənab Prezident, Sizin tapşırığınızla 2018-ci ildən "ASAN xidmət" mərkəzləri yerləşən regionlardakı Heydər Əliyev mərkəzlərində ASAN könüllüləri öz fəallığı ilə seçilirlər. Belə ki, 8 mindən çox ASAN könüllüsü 5 mindən çox layihədə iştirak edib. O layihələrin əsas məqsədi Azərbaycançılıq ideologiyasının, Ulu Öndərin siyasi kursunun öyrədilməsi və öyrənilməsidir. Bundan başqa, mərkəzlərdə könüllülərimiz vaxtlarını səmərəli keçirmək üçün digər təlimlərdə iştirak edirlər. Bizə göstərdiyiniz diqqət və qayğı üçün Sizə xüsusi təşəkkürümüzü bildiririk.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm.

ASAN könüllüsü **Nicat RƏŞİDOV** dedi:

- Möhtərəm cənab Prezident. Mən "ASAN Könüllüləri" Təşkilatının əməkdaşıyam. Diqqətinizə çatdırmaq istəyirəm ki, ASAN könüllüləri mərkəzlərdəki fəaliyyətlərini bitirdikdən sonra təşkilat tərəfindən icra olunan layihələrdə fəal iştirak edirlər. İlk olaraq qeyd edim ki, şəxsi inkişaf haqqında 220-dən artıq layihə icra edilib. Bu layihələrdə 45 mindən çox gənc əhatə olunub. Misal üçün, təhsil sahəsində olan bacarıqların artırılması məqsədilə "ASAN akademiya" layihəsi, regionlarda könüllülüyün geniş təşviqi üçün "Könüllülər Yurdu - Azərbaycan", gənclərin siyasi biliklərinin artırılması məqsədilə "Könüllülər Parlamenti - Azərbaycan", həmçinin onların dünyagörüşünün və natiqlik bacarıqlarının inkişafı üçün "SMM Business Breakfast", "TÜRKSOY-un I Beynəlxalq simulyasiyası", "AVO MUN", "Natiqlik çempionatı" layihələri həyata keçirilib. Bildiyiniz kimi, 2019-cu ildə Azərbaycan BMT-nin Dövlət Xidmətləri Forumuna evsahibliyi edib. Məhz bu tədbirdə də biz ASAN könüllüləri olaraq təşkilatçılıqda yaxından iştirak etmişik.

Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, ekoloji məsuliyyət sahəsində də ASAN könüllüləri IDEA İctimai Birliyi ilə birlikdə 400-dən çox ekoloji tədbir və maarifləndirmə aksiyası həyata keçirib. Bu aksiyalarda minlərlə gənc iştirak edərək cəmiyyətimizə töhfələrini əsirgəməyiblər. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, "Yaşıl ASAN" proqramı çərçivəsində 1500 ton kağız təkrar emala verilib və 17 mindən çox ağacın kəsilməsinin qarşısı alınıb. Həmçinin bizim təşəbbüsümüzlə reallaşdırılan "Əcnəbi könüllülər" layihəsi çərçivəsində Niderland, Böyük Britaniya, Çin və Hindistan kimi 17 fərqli ölkədən onlarla gənc Azərbaycanda ASAN könüllüsü adını qazanıb. Diqqətiniz üçün təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Çox sağ olun.

ASAN könüllüsü **Roza QOCAYEVA** dedi:

- Möhtərəm cənab Prezident, Sizi salamlayıram. Mən "ASAN Könüllüləri" Təşkilatının əməkdaşıyam. Sizə "ASAN Məktub" sosial proqramı haqqında məlumat vermək istərdim. Bu proqram 2015-ci ildən bugünədək sosial qayğıya ehtiyacı olan uşaqların arzularını gerçəkləşdirmək üçün nəzərdə tutulub. Dördillik fəaliyyətimiz dövründə 30-dan çox bölgədə olmuş və 4 minədək uşağın arzusunu reallaşdırmışıq. Onu da qeyd etmək istərdim ki, "ASAN Məktub" uğurlu layihə kimi, BMT-nin Könüllülük Proqramına daxil edilib. Bununla yanaşı, ASAN könüllüləri sosial işlərlə yanaşı, mədəniyyət sahəsində də öz bacarıqlarını nümayiş etdirirlər. Bu sahədə bizim "Mədəniyyət carçısı" proqramını xüsusi vurğulamaq istərdim. İkiillik fəaliyyəti dövründə 50-dən çox teatr tamaşası səhnələşdirilib. Bu tamaşalarımız beş mindən artıq gənci əhatə edib.

Çox təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- "ASAN xidmət" mərkəzinin əziz əməkdaşları, əziz könüllülər. Mən sizi ürəkdən salamlayıram, sizi Kürdəmir "ASAN xidmət" mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Bildiyiniz kimi, mənim sərəncamımla bu il Azərbaycanda "Könüllülər ili" elan olunmuşdur. Bu onu göstərir ki, Azərbaycan dövləti Könüllülər hərəkatına çox böyük önəm verir. İndicə mənə stendlər üzrə edilən təqdimat bir daha onu göstərir ki, Azərbaycan könüllülərinin fəaliyyəti çoxşaxəlidir.

Könüllülər hərəkatı, əslində, ölkəmizdə "ASAN xidmət" mərkəzlərində başlamışdır. Əsas vəzifə ondan ibarət idi ki, ölkəmizin gənc istedadlı sakinləri bu işlərə qoşularaq vətəndaşlara kömək göstərsinlər, Azərbaycanda Könüllülər hərəkatı başlasın və bu sahədə ciddi irəliləyiş olsun. Çünki "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması, əslində, Könüllülər hərəkatına da təkan vermişdir. Ancaq ondan sonra Könüllülər hərəkatı və könüllülərin fəaliyyəti çox geniş vüsət almışdır. Ölkəmizdə keçirilmiş mötəbər beynəlxalq yarışlarda, o cümlədən I Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında könüllülər çox fəal rol oynamışlar və bu oyunların uğurla keçirilməsində böyük dərəcədə öz xidmətlərini göstərmişlər. Mən görürəm ki, indi Könüllülər hərəkatı və könüllülərin fəaliyyəti daha genişmiqyaslıdır. Həm vətənpərvərlik, ekoloji tarazlıq mövzularında keçirilən tədbirlərdə, həm də incəsənət, mədəniyyət və digər sahələrdə könüllülər çox fəaldırlar. Eyni zamanda, ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmlənməsində də könüllülərin fəaliyyəti çox önəmlidir. Təsadüfi deyil ki, dünyanın mötəbər beynəlxalq təşkilatları, o cümlədən BMT və digər təşkilatlar həm "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirir, həm də Azərbaycanda yaranmış və inkişaf edən Könüllülər hərəkatına yüksək qiymət verirlər.

Bir çox ölkələrdə gəncləri birləşdirən təşkilatlar, qurumlar, ictimai birliklər var, o cümlədən Azərbaycanda da. Amma hesab edirəm ki, Könüllülər hərəkatı bu ictimai təşkilatlar arasında xüsusi yer tutur. Çünki Azərbaycan könüllüləri həm vətənpərvərdirlər, həm biliklidirlər, həm istedadlıdırlar, həm də Azərbaycan gəncliyini və gənclərin istedadını təcəssüm etdirirlər. Çünki könüllü olmaq, əslində, bizim milli xarakterimizə uyğundur. Mərhəmət, xeyirxahlıq, bir-birinə kömək göstərmək, mədəni davranış - bütün bunlar bizim genetik kodumuzda yazılmış sarsılmaz dəyərlərdir. Sadəcə olaraq, könüllülər xalqımıza xas olan bütün bu müsbət amilləri, əlamətləri özündə cəmləşdirərək bu gün bir hərəkat kimi fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, könüllülər Azərbaycan cəmiyyətində çox böyük rəğbətlə qarşılanırlar, o cümlədən "ASAN xidmət" mərkəzlərində. Siz - könüllülər və "ASAN xidmət" mərkəzlərinin əməkdaşları bunu görürsünüz, bilirsiniz. Əslində, "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti və bu mərkəzlərdə hökm sürən nizam-intizam, mədəniyyət, dürüstlük həm Azərbaycan cəmiyyətində böyük yenilik və ictimai xidmətlər sahəsində bir inqilab idi, eyni zamanda, bu, mərkəzlərə müraciət edən vətəndaşlar üçün də gözlənilməz bir hal idi. Çünki ictimai xidmətlər əfsuslar olsun ki, ölkəmizdə həmişə problemli bir sahə idi. İnsanlar məcbur olub günləri, həftələri itirərkən, bu və ya digər dövlət qurumuna müraciət edərkən öz haqlı tələbini təmin etmək üçün əziyyət çəkirdilər. Süründürməçilik, rüşvətxorluq, korrupsiya, mədəniyyətsizlik əfsuslar ki, ictimai xidmətlər sektoruna xas olan əlamətlər idi. İndi isə "ASAN xidmət" mərkəzlərində bunların biri də yoxdur. Eyni zamanda, "ASAN xidmət" mərkəzlərində yaranmış bu gözəl ab-hava ölkəmizin digər sahələrinə də müsbət təsir göstərir. Ona görə mən həm Könüllülər hərəkatının, həm də "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusilə qiymətləndirirəm. Bu, sadəcə olaraq, bir binada yüzlərlə xidmətin göstərilməsi deyil, bu, əslində, yeniləşən Azərbaycanın yeni simasıdır. Bu, müasir dövlətin növbəti uğurudur.

Bir daha demək istəyirəm ki, xalqımıza xas olan bütün müsbət əlamətlər, eyni zamanda, müasirlik, texnologiyalar, innovasiyalar "ASAN xidmət"də özünü büruzə verir. Bax, bu istiqamətdə inkişaf edən ölkəmiz uğur qazana bilər. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm, xüsusilə gənclərə müraciətim odur ki, biz bundan sonra da həm dövlət quruculuğu işində, həm ictimai proseslərdə, həm də islahatların aparılmasında əsas dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Müstəqil Azərbaycan dövləti çox dərin milli-mənəvi dəyərlər üzərində qurulub və eyni zamanda, bizim dövlətimiz müasirdir, dünyəvidir, gələcəyə uğurla getmək üçün hazırdır və beynəlxalq əməkdaşlığa açıqdır. Bax, bütün bu amillərin sintezi bizim uğurlarımızı şərtləndirir. Xüsusilə gənclər milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alanda onlar gələcəkdə də ölkə maraqlarını ləyaqətlə müdafiə edə biləcəklər.

Ölkə maraqlarını müdafiə etmək üçün bir neçə önəmli amil lazımdır. İlk növbədə, vətən sevgisi, vətənə və milli köklərə bağlılıq olmalıdır. Bu gün bu, cəmiyyətimizdə var və siz gənclərdən asılıdır ki, bu, həmişə olsun. Çünki ölkəmizin gələcək taleyi sizin kimi müasir, bilikli, istedadlı gənclərin əlində olacaq. Əlli ildən, yüz ildən sonra Azərbaycanın necə inkişaf edəcəyi sizin kimi gənclərin və sizdən sonra gələn nəsillərin fəaliyyətindən və dünya görüşündən asılı olacaq. Ona görə biz xalqımıza xas olan dəyərləri nəsildən-nəslə ötürməliyik, onları itirməməliyik, qorumalıyıq. İndiki şəraitdə bunu etmək o qədər də asan deyil. Çünki indi dünya qloballaşır, informasiya heç bir sərhəd tanımır, - bu da müsbət haldır, - amma bununla bərabər dezinformasiya da heç bir sərhəd tanımır, feyk xəbər anlayışı 5-6 il bundan əvvəl mövcud deyildi. İndi bu, həqiqətdir və bunu etiraf edənlər dünyanın aparıcı ölkələrinin dövlət başçılarıdır. Onlar da bundan əziyyət çəkirlər. Media bir tərəfdən artıq bütün sərhədləri aşaraq hər bir ölkəyə qədəm qoyur və bu, müsbət haldır. Bildiyiniz kimi, Azərbaycanda da media azadlığı var, internet azaddır, heç bir senzura yoxdur. Digər tərəfdən, informasiya təxribatları, yalan məlumat, şər-böhtanla dolu məlumat da sərhədləri aşır. Biz buna hazır olmalıyıq, xüsusilə gənclər. Ona görə bilməliyik ki, bizim uğurlu inkişafımızı bizdən çox istəyən yoxdur və taleyimiz öz əlimizdədir. Artıq 30 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq və müstəqillik hər şeydən dəyərlidir. Ona görə milli dəyərlər, müstəqillik və müasirlik gələcək inkişafımız üçün çox önəmli amillərdir. Çünki biz doqmatizmdən uzaq olmalıyıq. Doqmatizm hər bir cəmiyyətin inkişafına əsas əngəldir.

Bizim strateji inkişaf yolumuz var - milli dəyərlərin qorunması, müstəqilliyin möhkəmləndirilməsi, bundan sonra da heç kimdən asılı olmamaq, heç vaxt kiminsə iradəsi ilə idarə olunmamaq və uğurlu iqtisadi-sosial inkişaf, təhlükəsizlik, sabitlik, dünyaya açıq olmaq və milli maraqlarımızın qorunması. Bu, bizim strateji xəttimizdir. Bu, dəyişməz olaraq qalır, qalacaq və qalmalıdır.

Ancaq bununla bərabər, biz qapalı şəraitdə yaşaya bilmərik. Dünyada, regionumuzda gedən proseslər, əlbəttə ki, bizə də təsir göstərir. Əfsuslar olsun ki, bu gün regionumuzda proseslər mənfi istiqamətdə gedir, biz bunu görürük. Yeni münaqişə, yeni qarşıdurma ocaqları, müharibələr, vətəndaş müharibələri - bütün bu mənfi meyillər, o cümlədən iqtisadi sahədə dünyada yaşanan böhran bizə də təsir göstərə bilər və göstərir. Ona görə biz dünyada gedən prosesləri yaxından izləyərək öz addımlarımızı, o cümlədən taktiki addımlarımızı buna uyğun atmalıyıq. Nəzərə alsaq ki, ölkə daxilində risklər yoxdur, - nə siyasi risklər, nə sosial, nə iqtisadi, nə fiziki risklər, - bütün mümkün olan problemlər kənardan gələ bilər. Həm ideoloji təxribat, - bu barədə mən artıq öz sözümü dedim, - həm də ki, başqa təxribatlar. Ona görə biz ölkəmizi, sərhədlərimizi qorumalıyıq, informasiya sərhədlərimizi, mənəvi sərhədlərimizi elə möhkəm inşa etməliyik ki, heç bir kənar qüvvə bizim nə milli-mənəvi dəyərlərimizə, nə müstəqilliyimizə, nə də gələcək uğurlu inkişafımıza mane ola bilməsin. Nə qədər ki, mən bu vəzifədəyəm Azərbaycan müstəqillik, azadlıq və inkişaf yolu ilə gedəcək. Elə etməliyik ki, bizdən sonra gələn nəsillər, gənclər öz fəaliyyətlərini bu istiqamətdə qursunlar və təxribatlara uymasınlar, bəzi beynəlxalq təşkilatların yalan məruzələrinə inanmasınlar. Onların arxasında çox ciddi siyasi maraqlar dayanır. Nə üçün Azərbaycan bəzi hallarda beynəlxalq müstəvidə təzyiqlərlə üzləşir? Çünki heç kimin qarşısında baş əymir və əyməyəcək. Heç kimin sözü ilə oturub-durmur və düz də edirik. Ona görə ölkəmizdə sabitlik, inkişaf, əmin-amanlıq var.

Baxın, başqa ölkələrə, onlar böyük dövlətlərin təsiri altına düşmüşlər. Onların gününə baxın, orada vətəndaş müharibələri, kütləvi itaətsizlik baş alıb gedir, siyasi və iqtisadi böhran davam edir.

*Ardı 4-cü səh.*

# İlham ƏLİYEV: "İndiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz"

Əvvəli 3-cü səh.

O ölkələr faktiki olaraq xarici idarəetmə altındadırlar və öz müstəqilliyini kiminsə sərəncamına vermişlər. Amma biz ləyaqətli siyasət aparırıq. Mən həmişə demişəm ki, Azərbaycan dövlətinin taleyi xalqımızın əlindədir. Biz, nəhayət ki, müstəqil dövlət kimi yaşayırıq və heç kimdən asılı deyilik. Amma tariximizi də yaxşı bilirik. Hətta Azərbaycan Xalq Cümhuriyyətinin tarixi də birmənalı deyildi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi hadisə idi və bizim qürur mənbəyimizdir. Çünki müsəlman aləmində ilk dəfə məhz Azərbaycan xalqı demokratik respublika yaratmışdır, qəbul edilmiş qanunlar və planlar, onların niyyəti ölkəmizin uğurlu inkişafını şərtləndirə bilərdi. Ancaq o da həqiqətdir ki, iki il ərzində Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. O da həqiqətdir ki, o vaxt xarici ekspedisiya korpusu Bakıda hökmranlıq edirdi, Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini tanımırdı. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri məcbur olub o ekspedisiya korpusunun generalları ilə müzakirələr aparıblar ki, müstəqil siyasət yürüdə bilsinlər. Bu proses də böyük çətinliklərlə baş verirdi.

Ona görə indiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz, heç bir dövrlə. Bu gün bu qədər müstəqil, bu qədər azad dövlət Azərbaycan tarixində olmamışdır. Tarixçilər bunu yaxşı bilirlər. Biz də bunu qiymətləndirməliyik.

Tale 1991-ci ildə bizə yeni bir şans verdi. Biz bu şansı itirə bilərdik və əslində, itirirdik. Çünki 1990-cı illərin əvvəllərində gedən proseslər ölkəmizi məhvə aparırdı. Ancaq 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan bütün o bəlalardan canını qurtardı və inkişaf yoluna qədəm qoydu, müstəqillik yoluna qədəm qoydu. Bu gün biz bu yolla gedirik və gedəcəyik.

Bu gün "ASAN xidmət" mərkəzinin açılışında sizinlə görüş əsnasında, sadəcə olaraq, bu fikirlərimi bölüşmək istədim. Çünki istəyirəm ki, siz də biləsiniz mənim fikirlərimi, Azərbaycan xalqı da bir daha eşitsin bizim niyyətimiz nədir, siyasətimiz nədir və yolumuz nədir. Bir daha demək istəyirəm ki, "ASAN xidmət" mərkəzləri ölkəmizdə çox ciddi müsbət dəyişikliklərə yol açdı. Bu, bizim niyyətimizin, siyasətimizin təzahürü idi. Amma birinci mərkəzlər açılan zaman insanlara elə gəlirdi ki, bu, vətəndaşların rahatlığı üçün sadəcə, bir layihədir, xidmət layihəsidir. O vaxt bir çoxları bəlkə də dərk etmirdilər ki, bu, bir layihə deyil, bu, siyasətdir, hərəkatdır, bu, niyyətdir. Baxın, bu gün Azərbaycanın hər bir sahəsində islahatlar aparılır - siyasi sahədə, iqtisadi sahədə, struktur islahatları, kadr islahatları. Nazirlər Kabineti yenidən formalaşdı, Prezident Administrasiyası da həmçinin. Parlament yenidən formalaşır. Bir neçə gün bundan əvvəl parlament seçkiləri keçirildi. İqtisadi sahədə şəffaflıq təmin edilir. Bu şəffaflıq hesabına təkcə keçən il bir milyard manatdan çox vəsait dövlət xəzinəsinə daxil edildi və bu vəsait son qəpiyinə qədər vətəndaşların pensiyalarının, maaşlarının artırılmasına getmişdir. Bu ilin yanvar ayında xəzinəyə proqnozdan əlavə 160 milyon manat daxil edildi. Biz bunu da sosial layihələrə xərcləyəcəyik. Bir ayda 160 milyon manat o deməkdir ki, təqribən indi bunu 12 aya vursaq, - düzdür, burada çox da sadə yanaşmaq olmaz, - amma hər halda bu, bir meyildir.

Bütün bu işlər ölkəmizi gücləndirir. Parlament seçkiləri bir daha onu göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir. Çünki hətta bizə həmişə ən tənqidi mövqedən yanaşan təşkilatlar da seçkilərlə bağlı məruzəsində müsbət meyilləri qəbul etməyə məcbur olmuşlar. Pozuntulara gəldikdə, qeyd etmişlər ki, bu prosedur xarakterli pozuntular idi. Yəni, bu, hər bir ölkədə var. Heç bir ölkədə tam kamil seçkilər keçirilmir. Amma bu seçkilərdə nə saxtakarlıq, nə ciddi pozuntular olub, nə də ki, seçkilərin legitimliyini, yaxud da nəticələrini şübhə altına alan hər hansı bir pozuntu.

Müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri çox müsbət qiymətləndirdi. Bəziləri qeyd etdi ki, bu, bir çox ölkələr üçün nümunə ola bilər. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, - hansı ki bizə həmişə qərəzli yanaşır, - hesabatı da hesab edirəm ki, tarazlı idi, əvvəlki dövrlərə nisbətən daha obyektiv idi. Əlbəttə ki, bəzi məsələlərlə biz razılaşa bilmərik. Amma məruzənin ümumi nəticəsi, hesab edirəm ki, obyektivliyə daha yaxın idi. Biz də bəyan etmişik ki, mövcud olan pozuntular ciddi araşdırılacaq, pozuntulara yol vermiş şəxslər cəzalandırılacaq və bundan sonra da biz bütün beynəlxalq təşkilatlarla bu istiqamətdə








fəaliyyətimizi və əməkdaşlığımızı davam etdirəcəyik.

Bu dəfə 1300-dən çox namizəd olub. Bu, rekord göstəricidir. Bu, onu göstərir ki, seçkilər rəqabət şəraitində keçib. Əgər bir dairədən orta hesabla on nəfər iştirak edirsə, bu, rəqabət deyilmi? Ona görə o yekun məruzədə yazılmışdı ki, rəqabət olmayıb. Bəs, onda rəqabət nədir? Hər bir namizəd öz dairəsində açıq görüşlər keçirirdi, istədiyi sözləri deyirdi, bəziləri hakimiyyəti tənqid edirdilər. Heç kim buna görə heç kimə maneçilik törətmirdi. Bəs, onda açıq rəqabət nədir? Nəyə görə həmişə bizə qarşı "sərbəst toplaşmaq azadlığı təmin olunmayıb" ifadəsini işlədirlər, yalandır, olunub. Çünki indi hər kəs sərbəst toplaşmaq haqqını müvafiq yerlərdə icra edə bilər, amma qanun çərçivəsində. Necə ki, başqa ölkələrdə.

Ona görə seçki prosesi bütün demokratik meyarlara cavab vermişdir. Heç kim deyə bilməz ki, seçki prosesində hər hansı pozuntular olub. Hesab edirəm ki, səsvermə günü də seçkilər çox müsbət şəkildə keçirildi və əgər pozuntular olubsa, bir daha demək istəyirəm ki, bu pozuntular araşdırılacaq. Bilirəm ki, Mərkəzi Seçki Komissiyası artıq fəal işə başlayıb, yerlərdən məlumat toplayırıq. Biz istəmirik ki, pozuntular olsun. Pozuntulara yol verən şəxslər öz cəzasını almalıdırlar ki, gələcəkdə belə hallara yol verilməsin. Buna qətiyyən ehtiyac yoxdur. Çünki bu gün, tam səmimiyyətlə deyirəm, bizim siyasətimizə Azərbaycanda alternativ yoxdur. Elə bir siyasi qüvvə yoxdur ki, o, müəyyən dərəcədə xalqın rəğbətini qazansın və bu seçkilər onu bir daha göstərdi. Bizim apardığımız siyasət xalqımızın mütləq əksəriyyətinin maraqlarına cavab verir və gördüyümüz işlər də göz qabağındadır. Ona görə bütün bu sahələrdə aparılan islahatlar səmərə verir. İslahatların növbəti mərhələsi 2018-ci ildə başlamışdır. Prezident seçkilərindən sonra mənim tərəfimdən elan edilmişdi ki, biz yeni dövrə qədəm qoyuruq. Bu istiqamətdə ardıcıl olaraq fəaliyyətimiz davam etdirildi və qeyd etdiyim məsələlər də bunun sübutudur.

Mənim gənclərlə görüşlərim müntəzəm olaraq keçirilir. Hər dəfə gənclərlə görüşəndə çox sevinirəm ki, Azərbaycan gəncləri həm vətənpərvərdirlər, həm biliklidirlər, savadlıdırlar, zahirən gözəldirlər. Sizə uğurlar arzulayıram. Sizin fəaliyyətiniz "ASAN xidmət"də başlayır və davam edir. Bu, çox gözəl məktəbdir. Əminəm ki, burada topladığınız biliklər gələcəkdə sizə kömək göstərəcək və siz ölkəmizin gələcək inkişafında öz sözünüzü deyəcəksiniz. Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

Könüllü **Ülkər ŞİRİNOVA:** Cənab Prezident, Sizin dəstəyiniz və



təşəbbüsünüzlə Azərbaycanda könüllülük fəaliyyəti geniş şəkildə yayılıb. Biz region gəncləri də ASAN könüllülərinin sosial, ictimai, mədəni, ekoloji tədbirlərini, layihələrini hər zaman yaxından izləmişik. Biz region gənclərinin də arzusu olub ki, könüllülük fəaliyyətinə qoşulaq və bir könüllü kimi xalqımıza, millətimizə heç bir maddi maraq güdmədən xidmət edə və xeyirxah əməllərimizi vətəndaşlarımıza çatdıra bilək.

Siz bu gün rayonumuzda "ASAN xidmət" mərkəzini açaraq mən və mənimlə yanaşı, neçə gəncimizi arzumuza çatdırmış oldunuz. Biz bu gün Sizin qarşınızda könüllü kimi çıxış edirik, könüllü kimi dayanmışıq. Cənab Prezident, biz buna görə bütün könüllülərimiz adından Sizə təşəkkürümüzü bildiririk. Həmçinin 2020-ci il "Könüllülər ili"dir. "Könüllülər ili"ndə Sizin qarşınızda könüllü kimi çıxış etmək biz könüllülərə ayrı bir stimul verir və bizim üçün ikiqat bayramdır.

Cənab Prezident, bütün könüllülərimiz adından Sizi əmin edirəm ki, biz üzərimizə düşən vəzifənin, məsuliyyətin fərqindəyik və regionumuzun sosial, ictimai, mədəni, ekoloji tədbirlərində daha yaxından iştirak edəcəyik, region gənclərinin fərdi inkişafında böyük rol oynayacağıq və Sizin görəcəyiniz bütün işlərin fəal iştirakçısı olacağıq. Bunun üçün biz bütün könüllülər adından Sizə söz veririk.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol, təşəkkür edirəm.

**Mərkəzin əməkdaşı Xəyalə BABAYEVA:** Möhtərəm cənab Prezident, Sizi bütün Kürdəmir gəncləri adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz. Mən Kürdəmir rayonunda anadan olmuşam. Bakıda təhsil alarkən "ASAN xidmət" mərkəzində könüllü olmuşam. Könüllü olduğum müddətdə orada yaratdığınız şəraiti, imkanları, vətəndaşlara münasibəti və xidməti fəaliyyətin bu qədər yüksək olduğunu görüb həmişə arzu etmişəm ki, rayonumuzda da "ASAN xidmət" mərkəzi açılsın. Nə xoş haldır ki, bu gün rayonumuzda Sizin təşəbbüsünüzlə "ASAN xidmət" mərkəzi açılıb və biz də gənclər olaraq burada iştirak edirik.

Cənab Prezident, 2020-ci ili "Könüllülər ili" elan etmisiniz. Mən də hesab edirəm ki, bu il mənim ilimdir. Çünki həm könüllü olmuşam, həm də Sizin sayənizdə işçi kimi qarşınızda çıxış edirəm. Bu, mənim üçün çox qürurverici haldır.

Mərkəzimizdə 259 əməkdaş fəaliyyət göstərir. Xidmət fəaliyyətimiz təkcə Kürdəmiri deyil, Ağsu, Ucar, Zərdab, Göyçay və Hacıqabul rayonlarını da əhatə edir.

Cənab Prezident, hər zaman qeyd etdiyiniz kimi, dövlət qulluqçuları vətəndaşlara xidmətdə daim onların qulluğunda olmalıdırlar. Bizim mərkəzimizdə yaratdığınız bu imkanlardan, bu şəraitdən yararlanaraq demək istəyirik ki, biz də öz fəaliyyətimizi layiqincə yerinə yetirəcəyimizə söz veririk. Rayonumuzda belə gözəl şərait yaratdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Sağ olun.

❖ ❖ ❖

**"ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə CABAROVA:** Möhtərəm cənab Prezident, bu gün burada bir Azərbaycan gənci kimi, eləcə də ASAN könüllüləri adından çıxış etmək mənim üçün qürurvericidir. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə qüdrətli, öz gücünə güvənən, müstəqil siyasət yürüdən bir ölkədir. Bu gün dünyanın müxtəlif yerlərində, müxtəlif ölkələrdə insanlar cinayətlərin, bomba səslərinin qorxusu ilə yaşadığı bir vaxtda Azərbaycan gənci xurafatdan, radikalizmdən, cəhalətdən uzaq, vətənə, təhsilə bağlı şəkildə, dünyagörüşlü, savadlı, müasir gənc olaraq yetişdirilir. Sizin də qeyd etdiyiniz kimi, Azərbaycan gənci küçələrdə deyil, Azərbaycan gənci təhsil müəssisələrindədir, Azərbaycan gənci startap biznesindədir və eləcə də könüllü kimi fəaliyyət göstərir. 2012-ci ildə ilk "ASAN xidmət" mərkəzi fəaliyyətə başladığı gündən etibarən biz daim Sizin dəstəyinizi öz üzərimizdə hiss etmişik. Biz gənc könüllülər "Əsgərə məktub" layihəsi ilə cəbhədə əsgərimizin yanında, "ASAN məktub"la uşaqların qəlbində, dərin mədəni irsə malik vətənimizdə mədəniyyət carçıları olaraq vətəndaşların önündə, "Yaşıl ASAN"la təbiətin keşiyindəyik. Həmçinin onu qeyd edim ki, bu gün ölkəmizdə "Könüllülüyün yaşı yoxdur" şüarı da heç kəsi təəccübləndirmir. Bu gün artıq ASAN könüllülərinin sırasına pensiya yaşına çatmış şəxslər də qoşulur və bununla da yaşından, sosial statusundan asılı olmayaraq, hər bir vətəndaş xalqımıza ən uğurlu şəkildə xidmət etməyi, cəmiyyətimizin inkişafı üçün könüllü olmağı özünə borc bilir.

Möhtərəm cənab Prezident, çox şadıq ki, bizim fəaliyyətimiz dövlətimiz tərəfindən də çox yüksək qiymətləndirilir. Həm Siz, həm də hörmətli Mehriban xanım sosial fəal gənclərə nəinki dəstək olursunuz, həmçinin müxtəlif tədbirlərdə birbaşa olaraq özünüz də iştirak edirsiniz. Bunun biz gənclərə verdiyi yüksək motivasiyanı heç nə ilə əvəz etmək mümkün deyil. Bu ilin də məhz könüllülərə həsr edilməsi Sizin və Mehriban xanımın biz gənclərə ayırdığı diqqət və qayğının bariz nümunəsidir. Könüllülərə verdiyiniz dəyər gənclərin və ümumilikdə cəmiyyətimizin, dövlətimizin inkişafında böyük rol oynayır. Bildirmək istərdik ki, bundan sonra da fəaliyyətimiz boyunca apardığınız gənclər siyasətinin bir parçası olaraq hər zaman etimadınızı doğruldacaq, cəmiyyətimizin, gənclərimizin fərdi inkişafına təkan verəcək, gənclərin potensiallarından ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə edəcək, öyrəndikcə öyrədəcək, inkişaf etdikcə digərlərinin də inkişafı üçün çalışacaq, vətənə və vətəndaşlara olan sevgimizi yüksək tutacaq, azərbaycanlı adını layiqincə daşımağa çalışacağıq, vətənə olan sevgimizi hər zaman yüksək intellekt, sülhsevərlik, bilik, eləcə də birlik və bərabərliyimizlə ifadə edəcəyik. Diqqətinizə görə minnətdaram.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm. Bildirməliyəm ki, bu, sayca 17-ci "ASAN xidmət" mərkəzidir. Şadam ki, bu mərkəz Kürdəmirdə açılır və kürdəmirli gənclər burada fəaliyyət göstərirlər. "ASAN xidmət" mərkəzlərinin açılışı, eyni zamanda, yüzlərlə iş yerinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda bütün mərkəzlərdə 4 mindən çox əməkdaş var. Bu mərkəzdə 250-dən çox əməkdaş və 45 könüllü fəaliyyət göstərir. Növbəti mərkəzin məhz Kürdəmirdə fəaliyyətə başlaması da təsadüfi deyil. Kürdəmir çox önəmli və böyük potensiala malik olan rayondur, əhalisi də çoxdur, ölkəmizin, demək olar ki, mərkəzində yerləşir. Ona görə regional mərkəz kimi məhz Kürdəmirin seçilməsi hesab edirəm ki, düzgün qərar idi. Bu mərkəz 6 rayonun vətəndaşlarına xidmət göstərəcək. Ancaq Siz də yaxşı bilirsiniz ki, indi istənilən rayon sakini istənilən mərkəzdə istənilən xidməti ala bilər.

Kürdəmir rayonunun inkişafına bundan sonra da diqqət göstəriləcək. Bu gün rayonda bir neçə obyektin açılışında iştirak edirəm, o cümlədən yolun açılışı olub. Kənd yollarının vəziyyəti çox acınacaqlı idi. Son vaxtlar bu sahəyə böyük diqqət göstərildi və yolların 50 faizi yenidən quruldu. Mənə bu gün göstərilən təqdimatdan da məlum oldu ki, yolların əvvəlki vəziyyəti dözülməz idi. Orada heç asfalt da, çınqıl da yox idi, torpaq idi. Yağış yağanda o yollar keçilməz olurdu. İndi biz yolların 50 faizinin təmirinə nail olmuşuq. Ancaq hesab edirəm ki, dördüncü regional inkişaf proqramının 2023-cü ildə başa çatması nəticəsində Kürdəmir rayonunda bir dənə də təmirsiz yol qalmayacaq.

Mən Prezident kimi 15 il bundan əvvəl birinci dəfə Kürdəmirə gələndə rayonda qazlaşdırma, demək olar ki, yox idi. Gənclər yəqin ki, bunu xatırlamır. Ancaq bu gün Kürdəmir rayonunda qazlaşdırma 98 faizə çatıb. Yəni, bir neçə kənd qalıb ki, orada hələ qaz xətləri çəkilməyib, biz onu da edəcəyik. Elektrik enerjisi ilə bağlı çox böyük problemlər var idi, həm fasilələr olurdu, həm də enerji çatmırdı. İndi isə bu problem yoxdur. 2013-cü ildə mənim iştirakımla Kürdəmir şəhərində içməli su layihəsinin açılışı oldu və Kürdəmir şəhəri təmiz, dünya standartlarına cavab verən su ilə təmin edildi. Bununla bərabər, 43 modul tipli təmizləyici qurğu inşa edilmişdi ki, çay boyunca yerləşən kəndlərin camaatı da təmiz içməli su ilə təmin edilsin. Hazırda Kürdəmir şəhərində kanalizasiya layihəsi icra edilir. Mənə verilən məlumata görə, icra 20 faizdir və yəqin ki, yaxın 1-2 il ərzində bu problem də öz həllini tapacaq.

"Azərxalça"nın fabriki bu gün açılır. Bir neçə aqropark fəaliyyət göstərir. Əsaslı təmirdən çıxmış Mərkəzi Rayon Xəstəxanasının da mənim iştirakımla açılışını etmişik. Olimpiya idman mərkəzi, Gənclər evi inşa edilib. Yəni, belə obyektlərin sayı çoxdur. Otuzdan çox məktəb əsaslı təmir edilib. Amma görüləsi işlər də çoxdur. Ona görə dördüncü regional inkişaf proqramının uğurlu icrası nəticəsində hesab edirəm ki, bir dənə də olsun infrastruktur problemi qalmamalıdır.

İş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görülməlidir və görüləcək, xüsusilə özəl sektorda və dövlət sektorunda. Hələ ki dövlət sektorunda da yeni iş yerlərinin yaradılması zəruridir. Çünki istəmirəm ki, işsiz adam olsun. İşsizliklə bağlı problemlər daim diqqət mərkəzindədir, çünki əhalimiz artır. Cənubi Qafqazda yeganə ölkə Azərbaycandır ki, əhali artır və müstəqillik dövründə 3 milyon artıb. Təsəvvür edin, bizim əsas infrastruktur layihələrimiz sovet dövründə icra edilmişdir və onlar təqribən 6-7 milyon əhaliyə hesablanmışdır. Əgər biz son illərdə böyük infrastruktur layihələrini icra etməsəydik, bu gün işıqsız, susuz, qazsız qalacaqdıq. Çünki biz artan əhalini həm işlə, həm ərzaqla, həm də məktəblərlə təmin etməliyik. Hər il əhali 100 min artır. İqtisadi inkişaf buna uyğun olmalıdır. Ona görə bölgələrdə və böyük şəhərlərdə iş yerlərinin yaradılması daim diqqət mərkəzindədir. Amma mən tam əminəm ki, biz bütün çağırışlarla bağlı öz siyasətimizi bundan sonra da uğurla aparacağıq. Artan əhali bizim gücümüzdür və eyni zamanda, elə bir amildir ki, bizi daim daha fəal olmağa sövq etməlidir. Artan əhali artan tələbat deməkdir.

Əminəm ki, bundan sonra da Kürdəmir rayonunun inkişafında önəmli addımlar atılacaq və burada proseslər uğurla gedəcək, vətəndaşlar işlə təmin olunacaqlar, həm onların sosial rifahı yaxşılaşacaq və belə gözəl mərkəzlər yaradılacaq. Sizi bir daha təbrik edirəm, sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Həmişə belə gözəl, enerjili, fəal olasınız. Sağ olun.

❖ ❖ ❖

Sonra xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev "ASAN Həyat" kompleksinin tərkibindəki "ABAD Food Hall"un fəaliyyəti ilə tanış oldu, burada nümayiş etdirilən məhsulların nümunələrinə baxdı.

# “Azərxalça” ASC-nin Kürdəmir filialı istifadəyə verildi










Fevralın 12-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialı istifadəyə verilib.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev filialın açılışında iştirak edib.

“Azərxalça” ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, müəssisədə 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və s. kimi bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağdaş, Ağsu, Göyçay, Hacıqabul, İsmayıllı, Kürdəmir, Qax, Qəbələ, Qobustan, Oğuz, Salyan, Şamaxı, Şəki, Ucar, Zaqatala və Zərdab rayonlarının yaşayış məntəqələrində toxunan orijinal xalça çeşnilərinin istehsalına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular Kürdəmir şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində “Azərxalça”nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları “Azərxalça” ASC-nin sertifikatını alacaqlar. Xalça-satış salonunda “Azərxalça” ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Dövlət başçısı xalçaçılarla görüşdü.

Müəssisənin kollektivini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram. Şadam ki, Kürdəmir rayonunda da xalça fabriki açılır. Son vaxtlar bu istiqamətdə çox böyük işlər görülür. Planımızda 32 fabrikin açılışıdır, onlardan 11-i artıq fəaliyyətdədir. Biri də bu gün Kürdəmir rayonunda rəsmən açılır. Mənə verilən məlumata görə, burada qadınlar üçün 100-ə yaxın iş yeri yaradılıb. Bu, çox müsbət haldır. Bir tərəfdən, vətəndaşları iş yerləri ilə təmin edirik, xüsusilə qadınları. Digər tərəfdən, bizim qədim sənətimiz, xalçaçılıq sənəti inkişaf edəcək. Siz də bu sənəti yaşadırsınız və öz təcrübənizi, biliklərinizi gənc nəsil ilə bölüşürsünüz. Beləliklə, həm özünüz üçün yeni imkanlar əldə edirsiniz, eyni zamanda, ölkəmizin gələcək uğurlu inkişafı istiqamətində də mühüm töhfə verirsiniz. Çünki xalçaçılıq həm qədim sənətimizdir, həm də xalça ixracyönümlü məhsuldur. İndi bizim əsas vəzifəmiz qeyri-neft sektorunun ixracının artırılmasıdır.

Azərbaycan xalçalarına dünyada çox böyük tələbat var. Ölkəmizə gələn xarici qonaqlar xalçalarla çox maraqlanırlar. Nəzərə alsaq ki, keçən il ölkəmizə 3 milyon 170 min xarici qonaq gəlib və bu il daha da artacaq, ona görə bizim xalçalarımıza tələbat çoxalacaq. Sizin işiniz daha da çox olacaq. Burada yaxşı əməkhaqqı ilə təmin olunursunuz, iş şəraiti gözəldir. Son dövrdə “Azərxalça”nın xətti ilə açılmış fabriklərdə, demək olar ki, işçilərin hamısı razıdır.

**Xalçaçılar:** Biz də razıyıq. Çox sağ olun, minnətdarıq. Allah Sizə ömür versin. Allah Sizi qorusun.

Xalçaçı **Yemən ABDURƏHMANOVA:** Cənab Prezident, rayonumuza, müəssisəmizə xoş gəlmisiniz. Biz böyük şərəf hissi ilə, böyük qürurla Sizi gözləyirdik. Biz sevinirik ki, bizimlə görüşə gəlmisiniz. Mən Kürdəmir rayonunun bütün ziyalı qadınlarının, ağbirçək anaların, toxucularımızın adından Sizə dərin minnətdarlıq hissimi bildirirəm. Sizi, ailənizi, övladlarınızı, nəvələrinizi öpürəm, cənab Prezident. Allah Sizə uzun ömür, cansağlığı versin. Ümummilli Lider Heydər Əliyevin irsini axıra qədər davam etdirəsiniz.

Hörmətli Prezident, gün o gün olsun ki, Siz Qələbə günü haqqında sərəncam imzalayasınız, biz qurbanlarımızı kəsək.

Cənab Prezident, üzr istəyirəm, bəlkə çox danışıram. Kürdəmirdə xalça fabriki keçən əsrin 30-cu illərindən fəaliyyətə başlayıb. Bizim analarımız, nənələrimiz bu işi davam etdirdilər, biz də davam etdirmişik. 1989-cu ildə Kürdəmirdə xalça fabriki açılıb. Bütün qızları yığmışıq. Əvvəllər təkcə Kürdəmirin Şilyan kəndində var idi. Kürdəmir şəhərinin özündə xalça fabriki açılandan sonra Yenikənd, Köhnəbazar, Köhünlü, Şilyan kəndlərində sexlər yaratmışdıq. Ancaq o sexlərlə bu sexlər arasında yerlə göy qədər fərq var. Texniki avadanlıqlarımızda da, çeşnilərimizdə də, mallarımızın satılmağında da yeni sexlərin çox böyük rolu var. Mən toxucu qızlarla gəlib görüşəndə deyirəm, yadınızdadır o işlədiyiniz vəziyyət? Bizim indiki gözəl emalatxanamız bütün Avropa standartlarına uyğun qurulub. Allah Prezidentimizin də, Mehriban xanımın da canını sağ etsin. Siz biz qadınların sənətinə qiymət verir, bu sənəti yaşadırsınız. 2001-ci ildən sonra fabrik dayandı. Mən bir xalça mütəxəssisi kimi qadınların arasına çıxanda sual veriləndə ki, Yemən müəllimə, xalça fabriki niyə işləmir? Mən utanırdım cavab verməyə. İndi böyük qürur hissi duyuram.

Cənab Prezident, təkcə xalçaçıların yox, Kürdəmirin bütün ağbirçəkləri adından Sizə təşəkkürümü bildirirəm. Şəhərlə kənd arasında fərqi götürmüsünüz. Kəndlilər də qaz yandırır, kəndlilər də fasiləsiz elektrik enerjisi ilə, su ilə təmin olunub.

Cənab Prezident, 2017-ci ilin may ayında “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin ildönümü ilə əlaqədar Siz məni qabaqcıl xalça mütəxəssisi kimi “Tərəqqi” medalı ilə təltif etdiniz. Mən konfransda da dedim ki, bütün toxucular, bütün Kürdəmir toxucuları eşitsin. Bu medal tək mənə aid deyil, bu medal bütün toxuculara aiddir.

Bu gün şəhərimizdə “ASAN xidmət” mərkəzi açılıb. Bütün inzibati binalar tikilib. Hansı inzibati idarəyə, hansı təşkilata gediriksə, xoş üzlə qarşılanırıq, yaxşı yola salınırıq. Bunların hamısı Sizin sayənizdədir. Bunu heç kim unuda bilməz.

Cənab Prezident, biz şəhərə gəlmək üçün Şilyan kəndindən saat yarıma çıxa bilmirdik. İndi beş dəqiqəyə Şilyan kəndinin ən ucqar yerinə çata bilirik. Mən Sizi bütün ağbirçək analar adından öpürəm, Sizə təşəkkür edirəm, Sizə minnətdarlıq edirəm. Allah atanızı, ananızı cənnətlik etsin, ruhları şad olsun. Onların ruhları Sizə həmişə dayaq olsun. Mən bütün ağbirçək analar adından Sizi öpürəm, övladlarınızı öpürəm, Mehriban xanımı öpürəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Xoş sözlərə görə təşəkkür edirəm.

**Yemən ABDURƏHMANOVA:** Çox sağ olun. Ürəkdən gələn sözlərdir, səmimi sözlərdir.

**Prezident İlham ƏLİYEV:** Bilirəm. Tamamilə haqlısınız. Kürdəmir rayonunda son vaxtlar çox böyük dəyişikliklər oldu. Mən bu gün “ASAN xidmət” mərkəzinin açılışında dedim ki, Prezident kimi Kürdəmirə ilk dəfə 2005-ci ildə gəlmişdim. O vaxt işıqla bağlı problem var idi. Yollar, demək olar ki, yox idi, qazlaşdırma yox idi, su da yox idi, iş yerləri də yox idi. Ona görə kompleks tədbirlərin görülməsi nəticəsində biz bütün bu məsələləri tədricən həll etdik. İlk növbədə, elektrik enerjisi ilə təminat, ondan sonra Kürdəmirin bütün kəndlərində qaz olmalıdır. Cəmi iki kənd hələ ki qazlaşdırılmayıb. O da bu il və ya gələn il olacaq. Beləliklə, 100 faiz qazlaşdırma olacaq. Yolların da yarısı, 50 faizi təmirlidir. Qalan 50 faizini isə biz 2023-cü ilə qədər tam təmir edəcəyik. Kürdəmir şəhərində içməli su ilə bağlı problem 2013-cü ildə həll olunmuşdur. Kəndlərdə də modul tipli sutəmizləyici qurğular quraşdırılıb, 40-dan çox yeni qurğu da quraşdırılacaq. İş yerlərinin yaradılması ilə bağlı belə gözəl fabrik açıldı. İndi gedib baxarsınız, “ASAN Həyat” kompleksi, “ASAN xidmət” mərkəzi necə gözəldir. Orada həm 320 növ xidmət göstəriləcək. Eyni zamanda, orada gözəl kafelər, ictimai yerlər, kinoteatr, uşaq əyləncə yerləri fəaliyyət göstərəcək. Yəni, ictimai bir mərkəz kimi formalaşıb. Bu mərkəzin məhz Kürdəmirdə yaradılması rayona xüsusi münasibətin təzahürüdür. Çünki bu mərkəz altı rayona xidmət göstərəcək.

Xalça fabriklərinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Çünki siz də qeyd etdiyiniz kimi, biz, demək olar ki, bu sənəti bölgələrdə itirirdik. Bölgələrdə ancaq evlərdə köhnədən qalan dəzgahlar var idi. Toxucular fərdi qaydada işləyirdilər. Sifarişlər də, demək olar ki, yox idi, xalçanı toxuyub sata bilmirdilər. Siz yaxşı bilirsiniz ki, xalçanı toxumaq üçün ləvazimat, vasitələr, maddi imkan lazımdır.

**Yemən ABDURƏHMANOVA:** Hər şey var, şükür Allaha.

**Prezident İlham ƏLİYEV:** İndi bunlar olmayanda necə toxusunlar? Sonra toxuyub hara satsınlar? Ona görə bizim xalçaçılıq sənətimiz, demək olar ki, yalnız Bakı şəhərində qalmışdı. Ancaq bizim hər bir bölgəmizdə özünəməxsus xalçaçılıq məktəbi var. Ona görə ölkə üzrə 32 fabrikin yaradılmasının məqsədi bu idi ki, bölgələrdə bu sənət yaşasın, qadınlar cəlb olunsun, gözəl şərait yaradılsın, yaxşı pul qazansınlar, vətəndaşlara və dövlətə xeyir gətirsin. Biz buna da nail oluruq. Əminəm ki, burada toxunan bütün xalçalar ən yüksək qiymətə layiq olacaq və siz bu sənəti bu fabriklər vasitəsilə gənclərə ötürəcəksiniz. Mən görürəm, sizin aranızda gənc qızlar da var, onlar da təcrübə toplayacaq, sonra uşaqlar cəlb olunacaq. Beləliklə, qədim xalçaçılıq sənətimiz daim yaşayacaq. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

**Xalçaçılar:** Çox sağ olun, Sizə minnətdarıq.

❖ ❖ ❖

Sonra dövlət başçısı müəssisədə toxunan xalçanı kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Fevralın 9-da Azərbaycan Respublikası Milli Məclisinə sabitlik və demokratiya şəraitində keçirilmiş seçkilərdə Sizin rəhbərlik etdiyiniz Yeni Azərbaycan Partiyasının qazandığı qələbə münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, yeni formalaşan parlamentin məhsuldar fəaliyyəti respublika həyatının ictimai-siyasi və iqtisadi sahələrində tərəqqiyə, Azərbaycanın sürətli inkişafına, həmçinin dövlətin beynəlxalq aləmdə nüfuzunun artmasına kömək edəcək.

Şübhəsiz ki, Özbəkistan və Azərbaycan arasında strateji tərəfdaşlığa əsaslanan hərtərəfli və qarşılıqlı faydalı münasibətlər birgə səylərlə gələcəkdə də xalqlarımızın mənafeyi naminə möhkəmlənəcək.

Fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı, ailə səadəti və məsuliyyətli işinizdə uğurlar, dost Azərbaycan xalqına isə sülh və daimi inkişaf arzulayıram.

*Hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

## Kürdəmir şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kürdəmir şəhərində 5 nömrəli şəhər tam orta məktəbi üçün 960 şagird yerlik yeni binanın tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2020-ci il*

## Kürdəmir şəhərində 8 nömrəli körpələr evi-uşaq bağçası üçün yeni binanın tikintisi və şəhər infrastrukturunun yeniləşdirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində Kürdəmir rayonunda bir sıra sosialyönümlü infrastruktur layihələri həyata keçirilmiş, o cümlədən Olimpiya İdman Kompleksi, Gənclər evi, Bayraq Meydanı, Bayraq Muzeyi, əlil və şəhid ailələri üçün ümumilikdə 32 mənzilli 2 yaşayış binası inşa edilmiş, Rayon Mərkəzi Xəstəxanası, Tarix-Diyarşünaslıq Muzeyi əsaslı təmir olunmuş, “ASAN xidmət” mərkəzi istifadəyə verilmiş, 31 ümumtəhsil məktəbində təmir-tikinti işləri aparılmışdır. Bundan başqa, şəhərin su təchizatı sistemi yenidən qurulmuş, 4 aqropark, xalçaçılıq, həmçinin digər iri istehsal və emal müəssisələri yaradılmış, 19 mindən çox yeni iş yeri açılmış, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Kürdəmir şəhərində 8 nömrəli körpələr evi-uşaq bağçasının yeni binasının tikintisi, habelə şəhər infrastrukturunun yeniləşdirilməsi tədbirlərini davam etdirmək məqsədilə **qərara alıram:**

1. Kürdəmir şəhərində 8 nömrəli körpələr evi-uşaq bağçasının yeni binasının tikintisi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Kürdəmir Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat, o cümlədən 8 nömrəli körpələr evi-uşaq bağçasının 100 yerlik yeni binasının tikintisi üçün 1,5 milyon (bir milyon beş yüz min) manat, 8 küçədə əsaslı yenidənqurma işlərinin aparılması üçün 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2020-ci il*

## “Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, arxiv sənədlərinin etibarlı mühafizəsi və geniş istifadəsinin təmin edilməsi, arxiv işi sahəsində normativ hüquqi bazanın və idarəetmənin təkmilləşdirilməsi, arxiv xidməti təşkilatlarının müasir texnoloji tərəqqinin nailiyyətləri tətbiq olunmaqla dövrün tələblərinə uyğun modernləşdirilməsi məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2020-ci il*

*Sərəncama edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## A.S.Novruzovun Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azad Sevindik oğlu Novruzov Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2020-ci il*

## 2015-ci il 24 noyabr tarixli “Azərbaycan Respublikası Hökuməti ilə Aviasiya və Hava Məkanından İstifadə üzrə Səlahiyyətli Nümayəndələrin Dövlətlərarası Şurası arasında Dövlətlərarası Şuranın Azərbaycan Respublikasında saxlanılması üçün maliyyə yardımı göstərilməsi haqqında Protokol”da dəyişikliklər edilməsi barədə Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2015-ci il 24 noyabr tarixli “Azərbaycan Respublikası Hökuməti ilə Aviasiya və Hava Məkanından İstifadə üzrə Səlahiyyətli Nümayəndələrin Dövlətlərarası Şurası arasında Dövlətlərarası Şuranın Azərbaycan Respublikasında saxlanılması üçün maliyyə yardımı göstərilməsi haqqında Protokol”da dəyişikliklər edilməsi barədə 2019-cu il dekabrın 20-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Aviasiya və Hava Məkanından İstifadə üzrə Səlahiyyətli Nümayəndələrin Dövlətlərarası Şurasına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2020-ci il*

# Demokratik seçki nümunəsi

## Səsvermə günü ictimai asayiş daxili işlər orqanları tərəfindən ən yüksək səviyyədə təmin olundu

Əvvəli 1-ci səh.



Belə ki, 246 nəfərin namizədliyi 19 siyasi partiya tərəfindən, 11 nəfərin namizədliyi təşəbbüs qrupları tərəfindən irəli sürülmüşdü. 1057 nəfər namizəd öz təşəbbüsü ilə seçkiyə qatılmışdı. Onların arasında bütün yaş qruplarından olan namizədlərə rast gəlmək olardı. Deputat adı uğrunda mübarizə aparan namizədlərin 82 nəfəri 18-28 yaş, 407 nəfəri 29-39 yaş, 542 nəfəri 40-45 yaş, 221 nəfəri 56-66 yaş, 43 nəfəri isə 67 yaşdan yuxarı olan vətəndaşlar idi. 1998-ci ildə anadan olan və hazırda 22 yaşı olan 8 nəfər də deputatlığa namizədliyini irəli sürmüşdü. Namizədlərin 79 faizi kişilər, 21 faizi qadınlar idi.

Seçkilərin hazırlanıb keçirilməsində ən mühüm prinsiplərdən biri şəffaflıqdır. Demokratiya yolu ilə inamla addımlayan Azərbaycanda seçkilər zamanı aşkarlıq institutlarının, xüsusilə yerli və beynəlxalq müşahidəçilərin, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələrinin normal fəaliyyəti üçün yaradılan hərtərəfli və geniş imkanlar dünyanın bir çox ölkələri üçün nümunədir. Bu baxımdan 9 fevral parlament seçkisi bir tərəfdən demokratik dəyərlərin Azərbaycan cəmiyyətində dərin kök salmasının növbəti dəfə əyani təsdiqi oldu. Digər tərəfdən seçkinin nəticələri Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki nüfuzunun və dayaqlarının nə qədər möhkəm olduğunu bir daha ortaya qoydu.

### İslahatların davamı

Bu parlament seçkiləri Azərbaycanda həyata keçirilən islahatların tərkib hissəsi kimi tarixə düşdü. Cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığının təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək, zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Respublikamızın son illərdə nail olduğu inkişaf göstəriciləri də islahatların labüdlüyünün və uğurlu nəticəsinin ən gözəl nümunələri kimi beynəlxalq səviyyədə təqdir edilir. Siyasi, sosial-iqtisadi, mədəni-humanitar nailiyyətlərimizin hər biri məhz ardıcıl və sistemli islahatların nəticəsində mümkün olub.

Sürətli inkişafa nail olmaq, zamanla, müasir çağırışlarla ayaqlaşmaq üçün islahatlar da kompleks xarakter daşımalı, dövlət idarəetməsinin bütün qollarını əhatə etməlidir. Prezident İlham Əliyev məsələyə bu prizmadan yanaşır və islahatların bütün hakimiyyət orqanlarına sirayət etməsini zəruri sayır. Təsadüfi deyil ki, struktur və məhkəmə islahatlarından sonra dövlət hakimiyyətinin digər qolu olan icra hakimiyyəti ilə də bağlı mühüm qərarlar qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının işinin təkmilləşdirilməsi və qarşıya qoyulan vəzifələrdən irəli gələrək strukturu yenidən formalaşdırıldı. Bütün bunlar, o cümlədən Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən təqdir edildi.

Qanunverici orqanın yenidən formalaşdırılması təşəbbüsü islahatların davamıdır. Belə ki, cəmiyyət həyatının digər sferalarında keçirilən islahatların qanunverici hakimiyyəti də əhatə etməsi ölkədə baş verən köklü yeniliklərdən irəli gəlirdi. Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bu barədə danışan Prezident İlham Əliyev bildirib ki, seçkilərin Azərbaycanın gələcək inkişafında çox önəmli rolu olacaq: *"Bu seçkilər Azərbaycanda aparılan islahatlara dəstək verməlidir və seçkilərin növbədənkənar keçirilməsinin əsas məqsədi də o idi ki, vaxt itirmədən islahatlar davam etdirilsin. Çünki həm struktur islahatları aparıldı, həm hökumət, həm Prezident Administrasiyası yenidən formalaşdırıldı və əlbəttə ki, Milli Məclis bu işlərdən kənarda qala bilməzdi. Ona görə əminəm ki, bu seçkilərin Azərbaycanın gələcək inkişafında çox önəmli rolu olacaq. Çünki bizim qanunvericiliyimiz ölkəmizin artan sürətinə uyğun olmalıdır".*

### Polis vəzifə borcunu layiqincə yerinə yetirdi

İstənilən ölkədə hansısa siyasi kampaniyanın və ya mühüm bir tədbirin uğurla həyata keçirilməsi sabitliyin təmin olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycanın sabitliyin etibarlı təminatı baxımından bölgənin və dünyanın ən yaxşı göstəricilərə malik ölkələrindən biri olması hər birimizdə fəxarət hissi doğurur. O cümlədən beynəlxalq tədbirlər məkanına çevrilən və son illərdə xarici turistlərin daha çox səfər etdiyi Bakının dünyanın ən təhlükəsiz şəhərlərindən biri olması olduqca qürurvericidir. Bu sabitlik və ictimai asayişin etibarlı təmini məhz daxili işlər orqanlarının gərgin, məsuliyyətli və şərəfli fəaliyyətinin nəticəsidir. Bu uğurlar göstərir ki, Azərbaycan polisi dövlətin və dövlətçiliyin ən etibarlı dayaqlarından biridir.

Parlament seçkiləri əsas meyar olan demokratik tələblərə uyğun, azad və şəffaf keçirildi. Bununla yanaşı, bu mühüm siyasi kampaniya zamanı ölkədə sabitliyin də ən yüksək səviyyədə təmin olunması xüsusilə təqdirəlayiqdir. Fevralın 9-da keçirilmiş seçkilər zamanı daxili işlər orqanları tərəfindən qanunla müəyyən olunmuş vəzifələrin icrası təmin edildi, təhlükəsizlik və hüquq qaydası etibarlı qorundu. Daxili İşlər Nazirliyinin məlumatına əsasən, səsvermə günü ictimai asayişin kobud surətdə pozulması, seçki prosesinə polisin qanunsuz müdaxilə etməsi faktı qeydə alınmayıb. Polis, yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gələrək asayişi bərpa edib və qanunauyğun tədbirlər görüb.

Bütövlükdə, parlament seçkiləri kampaniyası zamanı daxili işlər orqanları öz vəzifə borclarını qanunla müəyyən edilmiş şəkildə layiqincə yerinə yetiriblər. Ona görə parlament seçkilərinin ilk günündən səsvermə gününə qədər bu siyasi hadisəyə kölgə sala biləcək hadisə baş verməyib.

9 fevral seçkiləri Prezident İlham Əliyevin ölkənin inkişafına və modernləşdirilməsinə yönəldilmiş islahatlarının vətəndaşlar tərəfindən birmənalı dəstəklənməsinin təsdiqi oldu. Qarşısında mühüm vəzifələr duran altıncı çağırış Milli Məclis isə respublikamızda həyata keçirilən islahatlara özünün layiqli töhfələrini verəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Davos bir daha etiraf etdi

## Azərbaycan ardıcıl islahatlar aparan və dinamik inkişaf edən ölkədir

Əvvəli 1-ci səh.

Ölkəmizdə dinamik inkişafla yanaşı, ictimai-siyasi sabitlik hökm sürür. Bu faktorlar isə xarici sahibkarlar üçün çox önəmlidir. Çünki hər bir investor xarici ölkədə kapital qoyuluşunu həyata keçirərkən bu amillərə xüsusi diqqət yetirir.

Davos Dünya İqtisadi Forumunda Azərbaycana olan maraq, dünyanın nüfuzlu şirkət rəhbərlərinin Prezident İlham Əliyevlə görüşə can atması da bununla bağlıdır. Dövlət başçısı forumda həm siyasi liderlərlə, həm də biznes dairələri ilə keçirilən görüşlərdə ölkəmizdə iş qurmaq üçün bütün şəraitin olduğunu vurğulamışdır. Qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, ölkədə siyasi sabitlikdir. Belə hal sözsüz ki, ölkəmizə olan marağı artırır. Şirkətlər Azərbaycanda yüksək texnologiyaların tətbiqi və transferi ilə iqtisadi fəaliyyətə başlamaq istəyirlər. Bu, həm də yeni iş yerlərinin açılması deməkdir. Üstəlik transmilli şirkətlərlə əməkdaşlıq ölkəmizin dünya iqtisadiyyatına transferi baxımından da əhəmiyyətlidir.

Dövlət başçısının Davos Forumunda görüşdüyü şirkət rəhbərlərinin fəaliyyət dairəsi yüksək texnologiyalardan faydalanmaqla məhsul istehsal etməkdir. Prezidentin həyata keçirdiyi iqtisadi siyasətin əsas hədəfi də budur. Çünki inkişaf etmiş ölkələr sırasına daxil olmaq üçün yüksək texnologiyaların tətbiqi ilə məhsul istehsalını artırmaq əsas şərtlərdəndir. Bu üzdən dövlət başçısının görüşdüyü şirkətlərin hamısı həmin parametrlərə cavab verir.

Bu baxımdan Davosda texnologiya sahəsində ixtisaslaşmış şirkətlərdən "Signify" və CİSCO-nun rəhbərləri ilə keçirilən görüşləri xüsusi vurğulamaq lazımdır. Qeyd edək ki, "Signify" şirkəti son üç ildə mütəmadi olaraq "Dow Jones Davamlılıq İndeksi"nin "Elektrik komponentləri və avadanlıqları" kateqoriyası üzrə birinci yerdə olan işıqlandırma sahəsində innovativ, yüksəkefektli, enerjiyə qənaət edən işıqlandırma məhsulları, sistem və xidmətlər təqdim edən dünya lideridir. "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşdə ölkəmizə yeni texnologiyaların gətirilməsi ilə iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində, həmçinin "ağıllı şəhər" layihələrində və internet texnologiyaları ilə işıqlandırma sistemlərinin inteqrasiyası istiqamətində müxtəlif həll variantlarının tətbiqi müzakirə olunmuşdur.

Onu da vurğulayaq ki, dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərən şirkət tərəfindən indiyədək 53 milyon obyektin işıqlandırılması təmin olunub. Bir il ərzində 6 milyard avro dəyərində xidmət satışını həyata keçirən belə bir şirkətin Azərbaycanla əməkdaşlıq etmək istəməsi ölkəmizin nüfuzundan xəbər verir.

Yaxud götürək Prezident İlham Əliyevin ölkəmizlə uzun müddət səmərəli əməkdaşlıq edən CİSCO şirkətinin icraçı vitse-prezidenti və maliyyə direktoru xanım Kelli Kramerlə görüşünü. Dövlət başçısı görüşdə qeyd etmişdir ki, Azərbaycanda bu şirkət üçün böyük biznes potensialı mövcuddur. Xanım Kramer isə Azərbaycanı regionun vacib ölkəsi olduğunu xüsusi vurğulayaraq bizimlə əməkdaşlıq etməyə üztünlük verdiyini bildirmişdir.

Məlum olduğu kimi, ölkəmiz yüksək texnika və texnologiyaların tətbiqi və transferinə üstünlük verir. Bu baxımdan növbəti əməkdaşlıq "SUEZ Group" şirkəti ilə nəzərdə tutulmuşdu. Həmin şirkət dünyada kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı, həmçinin inteqrasiya və meliorasiya sahəsində 5 qitədə fəaliyyət göstərir. Bu sahələrdə 160 illik təcrübəyə malik şirkətin baş icraçı direktoru Bertran Kamus Prezident İlham Əliyevlə ölkəmizdə qabaqcıl texnologiyaların tətbiqi barəsində fikir mübadiləsi apardı. Baş icraçı direktor bildirdi ki, şirkətin məqsədi real vaxt rejimində çalışan nəzarət sistemi, ağıllı sensorlar və sayğaclar, həmçinin elektroxlorlaşma həyata keçirən qurğular kimi bir sıra rəqəmsal və innovativ həllərin ölkəmizə transferini tətbiq etməkdir.

Xarici investorlar son illər Azərbaycanda biznes, vergi və gömrük sahələrində aparılan islahatların ümumi rəqabət mühitinə verdiyi müsbət töhfəni yüksək qiymətləndirirlər. Ölkəmizə "Procter and Gamble Europe" şirkəti tərəfindən maraq göstərilməsi də bununla əlaqədardır. Həmin şirkətin prezidenti Loik Tassel dövlətimizin başçısı ilə görüşündə bildirmişdir ki, məqsədləri Orta Asiya və Uzaq Şərqə doğru genişlənməkdir Bunun üçün isə regionun mərkəzi kimi Bakını seçmək istəyirlər. Səbəbi Azərbaycanda yaradılan münbit biznes mühitidir.

Bu faktlar bir daha göstərir ki, dünyanın nəhəng transmilli şirkətləri regionumuzda fəaliyyətə başlayarkən Azərbaycana güvənir, ölkəmizi seçirlər. Belə münasibət isə boş yerdən yaranmır. Görülən real işlər nəticəsində mümkün olur. Hər kəsə məlumdur ki, ölkəmizdə son dövrlər həyata keçirilən iqtisadi islahatlar sayəsində Azərbaycanda biznes mühiti daha da şəffaflaşıb, investisiya mühiti yaxşılaşıb, gömrük, vergi və digər sahələrdə qanunvericilik bazası təkmilləşdirilib. Bütün bunlar ölkəmizdə transmilli şirkətləri fəaliyyət göstərməyə təşviq edir. Sözsüz ki, belə münasibətin yaranmasının əsl səbəbi Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət və onların nəticələridir.

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

# Azərbaycan Milli Elmlər Akademiyasında İqtisadiyyat naziri Mikayıl Cabbarovla görüş keçirilib

Fevralın 12-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) əməkdaşların Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşü keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev çıxış edərək son vaxtlarda akademiyada bir sıra dövlət nümayəndələri ilə görüşlər təşkil olunduğunu, müxtəlif qurumlarla birgə layihələr həyata keçirməyi nəzərdə tutan əməkdaşlıq əlaqələrinin yaradıldığını bildirib.

Ramiz Mehdiyev belə görüşlərin təşkilində başlıca məqsədin akademiyanın mövcud potensialını, alimlərimizin əldə etdikləri mühüm nəticələri əməli baxımdan ölkədə quruculuq prosesinə, iqtisadiyyata inteqrasiya etdirməkdən, ölkəmizin hərtərəfli inkişafında elmi qurumların layiqli iştirakını təmin etməkdən ibarət olduğunu diqqətə çatdırıb.

Akademik bu formatda ünsiyyətin mövcud problemləri bilmək, onların həlli yolunu eşitmək və qurumlar arasındakı birbaşa ünsiyyətə əngəl törədən süni maneələrin aradan qaldırılması baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edib.

AMEA-nın prezidenti akademiya ilə hökumət qurumları arasındakı münasibətlərdən danışaraq deyib: "Uzun illərdir ki, akademiya ilə hökumət qurumları arasındakı münasibətlərdə durğunluq və boşluq hökm sürüb, ölkənin inkişafı üçün zəruri olan əməkdaşlıq olmamışdır. Bunun nəticəsində böyük potensiala malik Elmlər Akademiyası yeni dövrün quruculuq proseslərindən kənarda qalıb, cəmiyyətin inkişafına öz töhfəsini verə bilməmişdir. Halbuki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafı üçün apardığı islahat və yenilənmə xəttinə aktiv şəkildə qoşulmaq, ona dəstək vermək hər bir vətəndaşın, xüsusilə də alimlərimizin mənəvi borcudur. Ümid edirəm ki, hər iki tərəf - həm alimlərimiz, həm də dövlət strukturlarının nümayəndələri formalaşmaqda olan əməkdaşlıq platformasından səmərəli istifadə edərək mövcud imkanları dövlətin ümumi mənafeyi naminə səfərbər etməyə nail olacaqlar".

Akademiyanın imkanlarının geniş olduğunu diqqətə çatdıran AMEA rəhbəri ölkənin sosial-iqtisadi inkişafına və digər sahələrə elmin təsirinin çox zəif olduğunu vurğulayıb: "Halbuki dövlət strukturlarının elm ictimaiyyətinə tərəf yönəlməsi, onunla sıx əməkdaşlıq etməsi böyük perspektivlər vəd edir. Akademiyanın müxtəlif strukturları ölkəmizin sənaye və iqtisadi qüdrətinin artırılmasına lazımi töhfələr vermək iqtidarındadır. Son illər ərzində akademiyanın institutlarında olduqca aktual və faydalı elmi araşdırmalar aparılıb. Ancaq təəssüf hissilə bildirməliyəm ki, onların tətbiq olunması üçün dövlət orqanları tərəfindən sifarişlər olmamışdır. Akademiyanın strukturları da bu məsələyə passiv yanaşmışlar".

Akademik Ramiz Mehdiyev Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarovla keçirilən görüşün qeyd olunan çətinliklərin aradan qaldırılması, yeni əməkdaşlıq körpülərinin salınması baxımından faydalı olacağını, elmi potensialın iqtisadi proseslərə səmərəli şəkildə cəlb edilməsinin yollarını müəyyənləşdirməyə kömək edəcəyinə əminliyini söyləyib.

Sonra nazir Mikayıl Cabbarov çıxış edərək tədbirin AMEA-nın müxtəlif elmi müəssisələri ilə qarşılıqlı maraq doğuran mövzular ətrafında müzakirələrin aparılması, prioritet istiqamətlərin müəyyənləşdirilməsi baxımından əhəmiyyətini bildirib. Son illər ölkə iqtisadiyyatının əksər sahələrində dinamik inkişafın müşahidə olunduğunu deyən nazir diqqətə çatdırıb ki, İqtisadiyyat Nazirliyinin qarşısında duran əsas vəzifə ölkənin dayanıqlı inkişafına nail olmaqdır.

Mikayıl Cabbarov hazırda respublikamızda qeyri-neft sektorunun inkişafının iqtisadi artımın başlıca mənbəyi kimi diqqət mərkəzində saxlanıldığını vurğulayıb. O, milli iqtisadiyyatın tərəqqisinə yönələn tədbirlərin qeyri-neft sektorunda iqtisadi artıma müsbət təsir etdiyini, bu tədbirlər sırasında son illər investisiya siyasətinin düzgün qurulmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Ölkədə aparılan iqtisadi islahatların prioritet istiqamətlərindən bəhs edən nazir bildirib ki, əsas məqsəd iqtisadi artımın dünya üzrə orta iqtisadi artımdan geri qalmamasını təmin etmək, iqtisadi artım tempinin dünya üzrə artımı üstələməsinə nail olmaqdır. Mikayıl Cabbarov qeyri-neft əmtəə və xidmət ixracının əhəmiyyətli dərəcədə artırılması, dövlət investisiyalarının iqtisadi səmərəsinin çoxaldılması, eləcə də kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı"nın minimuma endirilməsi istiqamətlərində görülən işlərdən danışıb. Əlavə edib ki, aparılan islahatlar nəticəsində qeyri-neft sektorunda fəaliyyət göstərən şəxslərin sayının ötən il ərzində 18 faizdən çox artması vacib göstəricilərdən biridir.

Nazir ölkədə aparılan vergi siyasətindən də söz açaraq bu siyasəti iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin mühüm amili kimi qiymətləndirib. Vurğulayıb ki, vergi siyasətinin əsas məqsədlərindən biri məhz iqtisadi imkanların genişləndirilməsindən ibarət olmalı, iqtisadiyyatın tərəqqisinə yönəlməlidir.

Sonra Mikayıl Cabbarov İqtisadiyyat Nazirliyinin 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına dair statistik göstəricilərini görüş iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra nazir akademiya əməkdaşlarının suallarını cavablandırıb.

Tədbirdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsində AMEA-nın potensialından istifadə, İqtisadiyyat Nazirliyi ilə əməkdaşlıq əlaqələrinin qurulması, qeyri-neft sektoru üzrə elmə ayrılan investisiyalar və digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Sonda akademik Ramiz Mehdiyev görüşdə iştirak etdiyinə görə Mikayıl Cabbarova AMEA-nın kollektivi adından dərin minnətdarlığını bildirib, aparılan müzakirələr nəticəsində əməli tədbirlərin həyata keçiriləcəyinə və müsbət nəticələrin əldə ediləcəyinə əmin olduğunu vurğulayıb.

# Sergey Lavrov Rusiya Prezidentinin fəxri fərmanını Polad Bülbüloğluna təqdim edib

Fevralın 11-də Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov ilə MDB dövlətlərinin fövqəladə və səlahiyyətli səfirləri arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Sergey Lavrov Rusiya Prezidenti Vladimir Putinin tapşırığı ilə onun adından "Rusiya-Azərbaycan münasibətlərinin inkişafına verdiyi böyük töhfəyə görə" fəxri fərmanı Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğluna təqdim edib və onun fəaliyyətini yüksək qiymətləndirib.



Bundan əlavə, tədbir çərçivəsində Rusiya Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy MDB dövlətlərinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun İdarə Heyəti adından Polad Bülbüloğlunu "Humanitar əməkdaşlığın inkişafında göstərdiyi xidmətlərə görə" medalı ilə təltif edib.

Tədbirdə iştirak edən diplomatik missiyaların rəhbərləri də azərbaycanlı həmkarlarına səmimi təbriklərini çatdırıblar.


## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

LOT 1 - Təmizlik xidmətlərinin satın alınması
LOT 2 - Təsərrüfat avadanlıqlarının satın alınması

İddiaçılara təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar təmizlik xidmətlərinin satın alınması üzrə 300 AZN, təsərrüfat avadanlıqlarının satın alınması üzrə isə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h:AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 05 mart 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 13 mart 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 16 mart 2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasından 8 il ötür

# Qarşıya qoyulmuş vəzifələr əzmlə yerinə yetirilir

Müstəqil Azərbaycanın bugünkü dinamik inkişafı, dünyada böyük nüfuz və söz sahibi olması Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev böyük qətiyyət və əzmkarlıqla ölkəmizi sabitlik və təhlükəsizlik məkanına çevirib. Azərbaycanın beynəlxalq müstəvidə ikitərəfli əlaqələri sürətlə genişlənir, çoxtərəfli formatda uğurlu əməkdaşlıq səmərəli nəticələr verir.

2019-cu il də ölkəmiz üçün uğurlu il oldu, müstəqillik və inkişaf yolu ilə daha inamla addımladı. İlin sonunda ABŞ-ın "U.S.News & World Report" jurnalı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısını açıqladı. Azərbaycan siyahıda 80 ölkə arasında 45-ci yerdə qərarlaşdı, hətta bir neçə Avropa ölkəsini geridə qoydu. Siyahı tərtib edilərkən ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi və bir sıra digər amillər nəzərə alınıb.

2019-cu il Azərbaycan tarixində, eyni zamanda dərin islahatlar ili kimi yadda qaldı. İqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar, o cümlədən struktur dəyişiklikləri ölkəmizin gücünün və imkanlarının daha da artırılması baxımından tarixi nailiyyət kimi qəbul edilir. Azərbaycan xalqı öz taleyini böyük inamla etibar etdiyi Prezident İlham Əliyevin apardığı siyasəti bu gün birmənalı olaraq dəstəkləyir. Dövlət başçısı isə xalqın bu etimadına arxalanaraq daxili və xarici aləmdə müstəqil, milli maraqlara xidmət edən siyasət yürüdür. "Mən xalqımın bir nömrəli xidmətçisiyəm" - deyən Prezident İlham Əliyevin vətəndaşların rifahı naminə həyata keçirdiyi islahatlar, xalq-iqtidar birliyi qazanılan böyük uğurların əsas mənbəyidir. Bu isə onu göstərir ki, ölkəmizin müstəqillik yolu ilə irəliləməsinə mane olmaq mümkün deyil.

2019-cu il oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirildi və 120 ölkənin yekdil qərarı ilə Azərbaycan 3 il ərzində BMT-dən sonra bu ikinci böyük beynəlxalq təsisata sədrlik edəcəkdir. Bu, ölkəmizə göstərilən böyük etimaddır və sübut edir ki, dünya birliyi Azərbaycanı dəstəkləyir və ona böyük hörmətlə yanaşır.

Ölkəmizdə Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi respublikamızın hərbi qüdrətinin formalaşdırılması müvəffəqiyyətlə həyata keçirilmişdir. Azərbaycanın vahid komandanlıqdan idarə olunan nizami, yüksək döyüş qabiliyyətinə malik Silahlı Qüvvələrinin sürətli inkişafı istiqamətində əsaslı addımlar atılmışdır.

Prezident İlham Əliyev ordumuzun döyüş qabiliyyətinin artırılmasını, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsini hər zaman xüsusi diqqətdə saxlayır. Bu diqqətin nəticəsidir ki, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi: *"Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır... Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək".*

Əlbəttə, dövlət başçısının bu fikri Silahlı Qüvvələrimizin inkişafının əsas istiqamətlərini və hədəflərini tam ifadə etmişdir. 2016-cı ilin Aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələrin endirilməsi, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası istiqamətində qazanılmış Günnüt zəfəri, həmçinin Azərbaycan sərhədçilərinin 2019-cu ildə Qazax rayonunda Babakar istiqamətində əldə etdikləri ciddi uğurlar Silahlı Qüvvələrimizin qüdrətini nümayiş etdirir.

Keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın ölkəmizə təcavüzü nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. 1993-cü ildən bəri bu qətnamələr yerinə yetirilmir. Azərbaycan dövləti bir milyondan çox qaçqın və məcburi köçkünün problemlərini demək olar ki, təkbaşına həll etməkdədir. Təkcə 2019-cu ildə 5 mindən çox məcburi köçkün, 800-ə yaxın şəhid ailəsi üçün yeni mənzillər, evlər tikilmişdir. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bir daha vurğulamışdır: *"Bizim ardıcıl, düşünülmüş siyasət münaqişənin həllinə gətirib çıxaracaq. İqtisadi gücümüz, hərbi gücümüz, siyasi gücümüz, demoqrafik artım - bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əminəm, gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir".*

Prezident, Ali Baş Komandan İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında bəyan etdiyi "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" fikri hər bir hərbi qulluqçu üçün konkret vəzifələri bir daha dəqiqləşdirdi.

Bu il yanvarın 13-də Azərbaycan Respublikası Prezidentinin yanında keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev hərbi sahədə nailiyyətlərimizi konkret faktlarla təqdim etdi ki, *"Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir".*

## Səfərbərlik və hərbi xidmətə çağırış ölkəmizin müdafiəsinin mühüm tərkib hissəsidir

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2012-ci il tarixli fərmanına əsasən, müvafiq sahədə idarəetmə strukturunun təkmilləşdirilməsi, onun müasir tələblərə uyğun qurulması məqsədilə Müdafiə Nazirliyinin tabeliyində olan Azərbaycan Respublikasının Hərbi Komissarlığı, Naxçıvan Muxtar Respublikasının Hərbi Komissarlığı, rayon, şəhər hərbi komissarlıqları ləğv edilmiş və onların əsasında yaradılmışdır. Ötən 8 il ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində böyük inkişaf yolu keçərək hərb quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfələrini vermişdir. Müvafiq mərkəzi icra hakimiyyəti orqanı olaraq dövlət siyasətinin tələb olunan səviyyədə icrasını təmin etmək məqsədilə xidmət tərəfindən əsaslı tədbirlər görülmüş, səfərbərlik hazırlığı, Silahlı Qüvvələrin çağırışçılarla komplektləşdirilməsi, vətəndaşların hərbi vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı istiqamətində əhəmiyyətli nəticələr əldə edilmişdir.

Gənclərimizin ən mühüm vəzifələrindən biri Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borclarını yerinə yetirməkdir. Fərəhli haldır ki, bu gün gənclərimiz dövlət qarşısında konstitusion borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə böyük həvəslə gedirlər. Çünki onlar hərbi xidmət dövründə təlim və məşğələlərdə döyüş hazırlığını artırır, mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənirlər. Xidmət tərəfindən təşkil edilən ictimaiyyətin, şəhər və rayonların icra hakimiyyətinin, idarə və təşkilatların, eləcə də hüquq mühafizə orqanları əməkdaşlarının, təhsil işçilərinin, ziyalıların, ağsaqqalların, Qarabağ müharibəsi veteranlarının, valideynlərin, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə vətəndaşların ildə dörd dəfə - yanvar, aprel, iyul və oktyabr aylarının 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə yolasalma və ehtiyata buraxılan hərbi vəzifəlilərin qarşılanmaları ilə bağlı təşkil edilən təntənəli mərasimlər cəmiyyətdə rəğbətlə qarşılanır və böyük ruh yüksəkliyi yaradır.

Xidmətdə müxtəlif sahələr üzrə əldə olunan nəticələr əvvəlki illərin göstəricilərindən xeyli yüksəkdir. Ötən dövr ərzində səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, müddətli həqiqi hərbi xidmətə hazırlanması və hərbi xidmətə çağırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, eyni zamanda vətəndaşların qəbulu və müraciətlərinə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə, xidmətin daha bacarıqlı və savadlı kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və digər sahələrdə bir sıra tədbirlər həyata keçirilmişdir. Qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi üçün maddi-texniki bazanın gücləndirilməsi və şəxsi heyətin iş şəraitinin yaxşılaşdırılması olduqca zəruri məsələlərdəndir. Dövlətimizin qayğısı nəticəsində artıq səkkiz il ərzində bir neçə rayonda SHXÇDX-nin yerli struktur bölmələrinin yeni inzibati binaları istifadəyə verilmişdir. Ötən il xidmətin Goranboy rayon şöbəsinin yeni inzibati binasının açılışı olmuş, Lənkəran rayon şöbəsinin xidməti şəraiti yaxşılaşdırılmışdır. Qəbələ, Göygöl və Qax rayon şöbə və bölmələrinin yeni inzibati binalarının inşası başa çatdırılmış, Siyəzən rayonunda isə inşaat işləri davam etdirilir. O cümlədən işğal altında olan Xocavənd rayon əhalisinin, hərbi vəzifəlilərin, çağırışçıların səfərbərlik və hərbi xidmətə çağırış kimi mühüm işlərinin icrasını daha mütəşəkkil qaydada təmin etmək məqsədilə xidmətin yerli struktur bölməsi yaradılmışdır.

## Hərbi vətənpərvərlik tərbiyəsi gücləndirilir

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, yeniyetmə və gənclərdə Vətənə məhəbbət hissinin yüksəldilməsi, milli-mənəvi dəyərlərin aşılanması, onların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi istiqamətində birgə fəaliyyətin həyata keçirilməsi məqsədilə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə Azərbaycan Respublikasının Gənclər Fondu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmış və ötən il ərzində respublika əhəmiyyətli bir çox tədbirlər keçirilmişdir.

Vətəndaşlar arasında hərbi vətənpərvərlik işinin aparılması ilə əlaqədar respublikanın bir sıra rayon və şəhərlərində "Vətənin müdafiəsinə hazıram!" devizi altında vətənpərvərlik xarakterli silsilə kütləvi tədbirlər keçirilmiş, eyni zamanda Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən "Cəsurlar" və "Şahinlər" hərbi-idman oyunlarında xidmətin yerli idarə, şöbə və bölmələrinin hərbi qulluqçularının yaxından iştirakı və müvafiq köməyi göstərilməsi təmin olunmuşdur. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi vətənpərvərlik tərbiyəsinin daha geniş müstəvidə təbliği məqsədilə ötən il tərəfdaş qurumlarla - "Bakı Metropoliteni" QSC ilə əməkdaşlıq çərçivəsində Bakı metrosunun stansiyalarında, "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı Dəmir Yolu Vağzalında və sərnişin stansiyalarında, Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzində quraşdırılmış monitorlarda SHXÇDX-nin vətənpərvərlik mövzusunda hazırladığı iki videoçarxın yayımına başlanıb. Belə bir platformanın həyata keçirilməsi rəğbətlə qarşılanıb. Buna görə də müddətli həqiqi hərbi xidmətə çağırış dövründə əhalinin sıx olduğu ictimai yerlərdə və daha çox istifadə etdiyi ictimai nəqliyyat infrastrukturlarında da bu istiqamətdə işlər davam etdirilir. Respublikanın bütün şəhər və rayonlarının əsas küçə və prospektlərində də hərbi vətənpərvərlik mövzusunda banerlərin quraşdırılması həyata keçirilmiş, monitorlarda slaydlar yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli fərmanı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində yaradılmış "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Silahlı Qüvvələrə xüsusi hərbi ixtisaslar üzrə peşəkar kadrların hazırlığı aparılır.

Ulu Öndər Heydər Əliyev gəncləri "Azərbaycanın gələcəyi" adlandırır və deyərdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Bu diqqət və qayğının nəticəsidir ki, hazırda Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir, demək olar ki, cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Gəncliyə və gənclərə etimad artıq öz təsdiqini tapmaqdadır. Bu gün gənc nəslin düzgün formalaşması ölkəmizin ictimai-siyasi həyatında önəmli yer tutmaqla yanaşı, gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Gənclər dövlət qayğısını daim öz üzərlərində hiss edərək nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Əlbəttə, Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə güclərini səfərbər etməli, Vətənin inkişafı üçün səylə çalışmalı, onlara arxalanan ölkə rəhbərinin etimadını doğrultmalı, hər an Ali Baş Komandanın verəcəyi əmrə hazır olmalıdırlar.

## Vətəndaş məmnunluğu

Bu gün ölkəmizdə aparılan siyasətin mərkəzində insan amili dayanır. Ölkə rəhbərliyi səviyyəsində aparılan işlərin əsas hədəfi vətəndaşlara xidmət, vətəndaş məmnunluğunun təmin edilməsidir. Azərbaycan Respublikası Prezidentinin mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin və müavinlərinin regionlarda vətəndaşların qəbulunun keçirilməsi, onların təklif, şikayət və rəylərinin öyrənilməsi, qanuni tələblərinin yerinə yetirilməsi, eyni zamanda vətəndaş məmnunluğunun təmin edilməsinə dair tapşırığının icrası ilə əlaqədar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi və xidmət rəisinin müavinləri tərəfindən respublikanın regionlarında və Xidmətin Aparatında vətəndaşların qəbulunun keçirilməsi təşkil edilmişdir. Qəbul zamanı bir sıra müraciətlər yerində həllini tapmış, araşdırılması tələb olunan müraciətlər qeydiyyata alınaraq icrası ilə əlaqədar müvafiq tədbirlər görülmüş, xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər baxılması üçün aidiyyəti qurumlara göndərilmişdir.

Elektron xidmətlərin göstərilməsi və aidiyyəti qurumlar arasında inteqrasiyanın yaradılması istiqamətində müvafiq işlər davam etdirilmiş, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Əhalinin Dövlət Reyestri Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Dövlət İmtahan Mərkəzi ilə inteqrasiya işləri yekunlaşdırılmışdır. Dövlət qurumları ilə inteqrasiya prosesi vətəndaşların xidmətalma imkanlarını kifayət qədər sadələşdirməklə rahatlıqlarının təmin edilməsi istiqamətində irəliyə atılmış daha bir addım olmuşdur. Məsələn, Dövlət İmtahan Mərkəzi ilə inteqrasiya nəticəsində çağırışçılara müddətli həqiqi hərbi xidmətə çağırışdan təhsilə görə möhlətin verilməsi üçün Azərbaycan Respublikası daxilində ali və ilk peşə ixtisası təhsil müəssisələrində təhsil alan vətəndaşlar barədə məlumatların elektron qaydada alınması və avtomatik olaraq xidmətin "Vahid elektron informasiya sistemi"nə yüklənməsi həyata keçirilir. Eləcə də bu inteqrasiya ilə ali təhsil müəssisələrinə qəbul imtahanına sənəd verən çağırışçılara imtahana buraxılmalarına görə möhlət verilməsi üçün elektron ərizə məlumatlarının alınması təmin edilir.

Həmçinin Dövlət Miqrasiya Xidməti ilə şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti ilə bağlı müvafiq sorğuların elektron qaydada mübadiləsi işi təşkil edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, "Elektron xidmət növlərinin Siyahısı"nın təkmilləşdirilməsi məqsədilə, "Elektron hökumət" portalına inteqrasiya edilmiş, çağırışçılara və hərbi vəzifəlilərə inzibati qayda pozuntularına görə protokolların yazılması və cərimələrin tətbiq edilməsi üçün xidmətin "Vahid elektron informasiya sistemi"ndə müvafiq modullar hazırlanaraq cərimələr barədə məlumatların "ASAN-PAY" ödəniş sisteminə ötürülməsi üçün serverlər yazılmışdır.

Vətəndaşlara göstərilən elektron xidmətlərin tətbiqi, vətəndaş məmnunluğunun və şəffaflığın təmini ilə bağlı çağırışçıların müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə təyin olunmaları barədə məlumatlar hər çağırış qabağı SMS vasitəsilə çağırışçıların mobil telefon nömrələrinə göndərilir, eyni zamanda xidmətin saytında yerləşdirilir.

Göstərilən xidmətlərin operativliyinin təmin olunması və işin keyfiyyətinin artırılması məqsədilə xidmətin "Vahid Elektron İnformasiya Sistemi"ndən istifadə edilməsi üçün proqram təminatı da hazırlanaraq istifadəyə verilmiş, həmçinin "ASAN xidmət" mərkəzləri ilə Xidmətin Aparatı, o cümlədən yerli idarə, şöbə və bölmələri arasında daxili rabitə əlaqəsinin qurulması təmin edilmişdir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 17 yanvar 2019-cu il tarixli fərmanına əsasən, Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətləri yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında, həmçinin tabelikdə olan struktur bölmələrdə vətəndaşların müraciətlərinin baxılması işində səmərəliliyin artırılması, vətəndaş müraciətlərinə daha diqqətlə yanaşılması, ərizə və şikayətlərin araşdırılması və yaranmasına səbəb olan amillərin təhlili, narahatlıq doğuran məsələlərin müəyyənləşdirilməsi və aradan qaldırılması istiqamətində mühüm addımlar atılmış, "ASAN xidmət" mərkəzlərində həyata keçirilən xidmət növlərinin sayı artırılmış, xidmətin "ASAN xidmət" mərkəzlərində ezam edilmiş əməkdaşları tərəfindən xidmətin səlahiyyətlərinə aid olan müraciətlərin qanunamüvafiq qaydada həll edilməsi təmin edilmiş, bu da öz növbəsində vətəndaşlar tərəfindən müsbət qarşılanmışdır. Ümumilikdə 2019-cu il ərzində **39943** nəfər vətəndaş xidmətin "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən nümayəndələrinə müraciət etmiş və **39120** nəfər vətəndaşın müraciəti müsbət həll edilmişdir, digər müraciətlər isə aidiyyəti üzrə yönləndirilmişdir.

Şəhid ailələrinə, müharibə əlilləri və veteranlarına xidmət tərəfindən daim diqqət göstərilir. Ötən il daha bir yeni layihənin əsası qoyulmuşdur. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti respublikamızın bütün şəhər və rayonlarında Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən Novruz bayramı, Qurban bayramı, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə, o cümlədən dekabrın 1-də və 2-də könüllülük hərəkatının üzvləri olan gənclərin iştirakı ilə "Azərbaycan Könüllülük Həftəsi" layihəsinin "Şəhidimiz" kampaniyası çərçivəsində şəhid ailələrinə ziyarət təşkil etmiş və onlara sovqat çatdırılmışdır.

## Xidmətin beynəlxalq əlaqələri

Xidmətin beynəlxalq əlaqələri sahəsində müəyyən işlər həyata keçirilmişdir. Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində ötən dövr ərzində də tədbirlər həyata keçirilmiş, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasına yeni təyin olunmuş hərbi attaşesi ilə, İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri ilə, türkiyəli qazilərdən və ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyəti ilə görüşlər keçirilmişdir. Eyni zamanda Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilmiş və Gürcüstan Respublikasında keçirilmiş iki dövlətin qurumlarının nümayəndələrinin işçi görüşündə xidmətin əməkdaşının iştirakı təmin olunmuşdur.

Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə tədbirin keçirilməsi təşkil edilmişdir.

## Kadr və kadr hazırlığı

Xidmətin savadlı və bacarıqlı əməkdaşlarla komplektləşdirilməsi işi prioritet olaraq nəzarətdə saxlanılmışdır. 2019-cu il ərzində də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu qismində həqiqi hərbi xidmətə və mülki işə qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar müvafiq qaydada test imtahanlarına cəlb olunmuş, onların fiziki hazırlıqları və sağlamlıq vəziyyətləri yoxlanılmış, barələrində yoxlama tədbirləri həyata keçirilmiş, müsbət nəticə əldə etmiş şəxslər həqiqi hərbi xidmətə və işə qəbul edilmişlər.

Ötən il Prezident İlham Əliyev tərəfindən genişmiqyaslı sosial paket təqdim edilmiş və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində, həmçinin dövlət qulluqçularının, dövlət qulluqçusu olmayan mülki işçilərinin əməkhaqları əhəmiyyətli dərəcədə artırılmışdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində çalışan işçilərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların ailə üzvlərinin sağlamlıqlarının qorunması məqsədilə, "Həmkarlar İttifaqı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq xidmətin ilk həmkarlar ittifaqı təşkilatı təsis edilmiş və il ərzində işçilərin sosial-rifah halının yüksəldilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hər bir əməkdaşı xalqa, dövlətə sədaqətlə xidmət edir və yaxşı bilir ki, bu xidmətin alternativi yoxdur...

**Arzu RƏHİMOV,**
***general-leytenant,***
***Azərbaycan Respublikası***
***Səfərbərlik və Hərbi Xidmətə***
***Çağırış üzrə Dövlət Xidmətinin rəisi***

# Dini-mənəvi mühitin qorunduğu ali təhsil ünvanı

Ötən gün Azərbaycan İlahiyyat İnstitutunun (AİI) təsis edilməsinin 2-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.



AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, institutun Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli sərəncamına əsasən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində təsis edildiyini vurğulayıb. İnstitutun yaradılmasında məqsədin Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək olduğunu bildirib.

Azərbaycanda nümunəvi dövlət-din münasibətləri haqqında bəhs edən C.Məmmədov Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasətin hazırda onun layiqli varisi Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Birinci vitse-prezident xanım Mehriban Əliyeva və onun rəhbəri olduğu Heydər Əliyev Fondunun bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb.

AİI rəhbəri daha sonra vurğulayıb ki, institutun yaradılması dövlət-din münasibətlərinə, milli-mənəvi dəyərlərə qayğının ən böyük göstəricilərindən biridir.

C.Məmmədov ötən iki il ərzində institutun gördüyü işlər, ali təhsil müəssisəsinin həyata keçirdiyi fəaliyyət istiqamətləri, həmçinin hədəfləri haqqında da məlumat verib.

Rektor qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu qarşısına bir sıra məqsəd və hədəflər qoyub. Müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsi ümdə vəzifələrdəndir: "Belə mütəxəssislər yetişdirmək üçün bir çox layihə həyata keçirir, diskussiyalar, yarışlar, konfranslar, təlimlər təşkil edirik. İşimizdə dünya və qonşu ölkələrin təcrübələrindən bəhrələnirik. İstəyirik ki, tələbələrimiz - gələcəyin ilahiyyatçıları dərin elmə, yüksək intellektə, zəngin dünyagörüşünə malik peşəkar mütəxəssislər olsun".

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev Şeyxülislam Allahşükür Paşazadənin AİI heyətinə xeyir-dualarını çatdırıb. O, İlahiyyat İnstitutunun yaradılmasını ölkəmiz üçün əhəmiyyətli hadisə kimi qiymətləndirib. F.Nurullayev xüsusilə son illərdə dünyada gedən gərgin siyasi proseslərin fonunda bu qərarın doğru və yerində olduğunu vurğulayıb. Hazırda dini təhsil almış insanlara ehiyac olduğunu qeyd edən F.Nurullayev institutun Azərbaycanın dini həyatında xidmətləri olacaq layiqli məzunlar yetişdirəcəyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov istər islam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyin keşiyində duran yüksəkixtisaslı dinşünas və islamşünas kadrların hazırlanması baxımından AİI-nin fəaliyyətini yüksək qiymətləndirib. Cəmiyyətdə institutun yetəri qədər tanındığını və müsbət fikirlərin olduğunu bildirib. Regionda dini təhsil verən kifayət qədər müəssisələrin olduğunu vurğulayan sədr müavini Azərbaycan İlahiyyat İnstitutunun bu rəqabət mühitində öz sözünü layiqincə deyəcəyinə ümidvar olduğunu bildirib.

Sədr müavini bildirib ki, Azərbaycanda dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu baxımdan Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxladığının bariz göstəricisidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Daxili İşlər Nazirliyi xarici ölkə vətəndaşlarına müraciət edib

## Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə yol hərəkəti qaydalarını pozaraq cəriməni ödəmədən ölkədən çıxması hallarının qarşısı alınacaq

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (DİN) xarici ölkə vətəndaşlarına müraciət edib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ölkəmizə gəldikləri, yaxud Azərbaycanda icarəyə götürdükləri avtomobillərlə yol hərəkəti qaydalarını pozaraq cəriməni ödəmədən ölkədən çıxmaları hallarının qarşısının alınacağı qeyd edilib. Bu məqsədlə respublikanın bütün sərhəd məntəqələrində Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən beş dildə hazırlanmış buklet və plakat formasında xüsusi bildirişlərin paylanılmasına başlanılıb.

Müraciətdə bildirilib ki, Azərbaycan Respublikasının ərazisində yol hərəkəti qayda pozuntularına xüsusi texniki vasitələrin köməyi ilə nəzarət edildiyi üçün inzibati xətaya yol vermiş şəxslərin barəsində iştirakları olmadan elektron qərar çıxarılması, cərimə ödənişləri ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş güzəşt və dəbbə pulu, habelə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 17.1.7-ci maddəsinin tələblərinə əsasən, ölkəmizin ərazisində inzibati xəta törətmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin barələrində inzibati tənbeh tədbirləri icra edilənədək onların 2020-ci il fevralın 13-dən başlayaraq Azərbaycan Respublikasından getmələri müvəqqəti məhdudlaşdırılacaq.

Buklet formalı bildirişlər sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələri ilə ölkəyə daxil olan sürücülərə paylanılır, plakatlar isə həmin məntəqələrdə yaxşı oxuna bilən yerlərdən asılıb.

Həmçinin ilin əvvəlində xarici ölkə vətəndaşlarına tətbiqi nəzərdə tutulan qanunvericiliyin tələbləri barədə məlumat çatdırılması məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə səfirliklərə müraciət edilib.

# Sumqayıtlılar Çinin Siana şəhərinə tibbi ləvazimatlar göndəriblər

Çində yayılan yeni tip koronavirus epidemiyası getdikcə daha çox ərazini əhatə edir, qarşısının alınmasında ciddi çətinliklər yaşanır. Bunu nəzərə alan sumqayıtlılar dostluq və əməkdaşlıq əlaqələri olan Çin Xalq Respublikasının Sian şəhərinə tibbi ləvazimatlar göndəriblər.

Sumqayıt Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, fevralın 12-də Çin Xalq Respublikasının Sian şəhərinə 40 min ədəd tibbi maska, 50 min ədəd steril əlcək, 50 min ədəd 100 millilitrlik qabda spirt göndərilib.

Qeyd edək ki, sumqayıtlılar bir neçə gün öncə dostluq və əməkdaşlıq əlaqələri olan Çinin Mienyen şəhərinə də tibbi yardım etmişdilər.

Yeni növ koronavirus ilk olaraq Çinin Uxan şəhərində yayılmağa başlayıb. Bu günə olan məlumata görə, Çində yeni növ koronavirus epidemiyası səbəbindən ölənlərin sayı 1114 nəfərə çatıb. Bu barədə Çinin Milli Səhiyyə Komissiyasından bildirilib. Qeyd olunub ki, virusa yoluxanların sayı 44 min 653 nəfərə çatıb. Bunlardan 8 min 204-nün vəziyyəti kritikdir.

# Bu il özünüməşğulluq proqramına 1122 nəfər cəlb edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 2020-ci il üzrə özünüməşğulluq proqramına artıq 1122 nəfər cəlb edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, proqrama cəlb olunanlar üçün 45 rayonda təlimlər keçirilir. Bir aylıq təlim müddətində iştirakçılara biznes-plan qurmaq, kiçik biznesin təşkili və inkişaf etdirilməsi üzrə bilik və bacarıqlar öyrədilir.

Təlim başa çatandan sonra iştirakçıların özünüməşğulluq fəaliyyətinə hazırlıq səviyyələrinin və hazırladıqları biznes-planların qiymətləndirilməsi həyata keçiriləcək. Həmin qiymətləndirmədən uğurla keçənlər təqdim etdikləri biznes-plana uyğun mal və materiallarla təmin ediləcəklər.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Azercell” olimpiada qalibləri ilə görüşdü





Ölkə əhalisinin əksəriyyətinin seçimi və yerli mobil rabitə bazarının lideri olan “Azercell Telekom” MMC daima gənclərin fərdi və elmi inkişafına yönələn təşəbbüsləri ilə fərqlənir.

Bu istiqamətdə ənənəsini uğurla davam etdirərək şirkət fevral ayının 12-də ölkəmizi dəfələrlə informatika fənni üzrə beynəlxalq olimpiadalarda layiqincə təmsil edən Abutalıb Namazov, Murad Eynizadə, Əziz Hüseynov və İbrahim Tağızadə ilə görüş təşkil edib. “Azercell Telekom”un prezidenti Vahid Mürsəliyev, şirkətin Korporativ Ünsiyyət bölümünün rəhbəri Nigar Şıxlinskaya, Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayev, Təhsil İnstitutunun mütəxəssisi Qorxmaz Mustafayev, beynəlxalq olimpiadalara hazırlıq komandasının müəllimləri Kənan Əsgərli və Rəşad Məmmədov şagirdləri qazandıqları uğur münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzu ediblər. “Məktəblilərimizin son illər ərzində beynəlxalq olimpiadalarda yüksək nəticə göstərmək tendensiyası qürurverici bir haldır. Mən çox şadam ki, şagirdlərimizin bu nailiyyətində “Azercell”in də əməyi var. Biz, “Azercell” şirkəti olaraq, ölkəmizdə informasiya texnologiyaları sahəsində təhsilin, insan kapitalının sürətli inkişafı və yüksəkixtisaslı kadrların yetişdirilməsi məqsədilə təşkil edilən layihələrə daima dəstək oluruq və bu istiqamətdə fəaliyyətimizi gələcəkdə də davam etdirəcəyik”, - deyə Vahid Mürsəliyev qeyd edib. Fuad Qarayev öz növbəsində “Azercell” şirkətinə təşəkkürünü bildirərək, Təhsil İnstitutu ilə “Azercell Telekom” MMC-nin artıq bir neçə il ərzində informatika sahəsi üzrə istedadlı şagirdlərin aşkar edilməsi, onlarla məqsədyönlü işlərin aparılması istiqamətində əməkdaşlıq etdiyini və bu səylərin nəticəsi olaraq komandamızın nailiyyətlərinin növbəti beynəlxalq olimpiadalarda da davam edəcəyinə ümid bəslədiyini bildirib. “Azercell” tərəfindən istedadlı şagirdlərimizə dəyərli hədiyyələr də təqdim edilib.

Xatırladaq ki, bu il məktəblilərimiz daha bir ilkə imza atmağa müvəffəq olublar. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Abutalıb Namazov 8-15 yanvar tarixlərində Qazaxıstanın Almatı şəhərində baş tutan 16-cı Beynəlxalq Jautikov Olimpiadasında qızıl medal alaraq, informatika fənni üzrə ilk ali mükafatı Azərbaycana gətirib. Eyni zamanda, həmin liseyin 11-ci sinif şagirdi Murad Eynizadə gümüş və Gəncə şəhər 15 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar.

Qeyd edək ki, 2017-ci ildən etibarən “Azercell” şirkəti Təhsil Nazirliyi ilə birgə informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlaşan şagirdlər üçün xüsusi təlimlər təşkil edərək, onların öz elmi potensiallarını inkişaf etdirməklərinə töhfə verir.

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu 4 LOT üzrə təkliflər sorğusu elan edir

**LOT 1.** Volkswagen Amarok model avtonəqliyyat vasitəsinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması;
**LOT 2.** 2 ədəd Toyota Camry və 2 ədəd Toyota Corolla model avtonəqliyyat vasitələrinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması;
**LOT 3.** BMW 740 model avtonəqliyyat vasitəsinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması;
**LOT 4.** Mazda 6 model avtonəqliyyat vasitəsinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması.

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: +99412 498-77-53, faks: +99412 565-87-55, əlaqələndirici şəxslər: Əli Rzayev - daxili: 1005, hüquqi məsələlər üzrə Kəmalə Rəhimova - daxili: 8023) müraciət edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iddiaçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak üçün sənədlər 20 fevral 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 21 fevral 2020-ci il saat 11:00-da AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tenderə dəvət edir*

LOT 1 - DOST Agentliyi üçün maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün tələb olunan kənar auditorun seçilməsi üzrə xidmətin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 70 (yetmiş) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ25IBAZ38090039446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02.03.2020-ci il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 12.03.2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 12.03.2020-ci il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

29 yanvar 2020-ci il tarixdə “Azərbaycan” qəzetində dərc olunmuş Azərbaycan Respublikası Baş Prokurorluğunun tender elanında son 2 abzas aşağıdakı kimi oxunmalıdır:

- İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 04 mart 2020-ci il saat 11:00-a qədər, tender təklifi və bank zəmanətini isə 12 mart 2020-ci il saat 17:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 13 mart 2020-ci il saat 11:00-da Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi
### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi 02-04 aprel 2020-ci il tarixlərdə Bakı şəhərində “Milli Məkan Məlumatları İnfrastrukturu: rəqəmsal cəmiyyətə doğru” mövzusunda beynəlxalq konfransın təşkili ilə bağlı müvafiq mal, iş və xidmətlərin satın alınması üzrə 3 (üç) LOT-dan ibarət açıq tender elan edir.

Açıq tenderin predmeti aşağıdakı LOT-lar üzrə göstərilən işlərin satın alınmasıdır:

LOT 1 - Konfransın təşkili, konfrans iştirakçılarına hədiyyələrin alınması, çap məhsullarının hazırlanması;
LOT 2 - Azərbaycan, ingilis və rus dillərinə və əksinə sinxron tərcümənin təşkili, tədbir materiallarının yazılı tərcüməsi, tədbirin tərcümə, audio və vizual avadanlıqlarla təchizatı, ölkədaxili nəqliyyatın təşkili, video və fotoçəkilişlərin aparılmasının təşkili;
LOT 3 - Konfransda iştirak edəcək nümayəndələrin hoteldə qonaqlama və qidalanmasının təşkili.

Açıq tenderdə müvafiq işlərin yerinə yetirilməsi sahələrində ixtisaslaşan mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ - vahid internet Portalına elektron imzaları ilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderin bir LOT-u üçün iştirak haqqı 250 (iki yüz əlli) manat müəyyən edilmişdir. Tenderin hər hansı LOT-unda iştirak etmək istəyənlər həmin LOT üçün 250 (iki yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra tenderin həmin LOT-unun Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər:

**Emitent**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Bank kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Alan**
**Əmlak Məsələləri Dövlət Komitəsi**
**VÖEN: 2000015631**
**H/H: AZ84CTRE00000000000002647970**
**Büdcə səviyyəsinin kodu -7**
**Büdcə təsnifatının kodu -142340**
**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvanı və bank rekvizitləri;*
- *müvafiq LOT üzrə tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *müqavilə üzrə işlərin icrasına cəlb ediləcək subpodratçılar barədə məlumat;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən sənədləri (məlumatları) təqdim etməlidirlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə verilir.

Tender LOT-unun predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 10 (on) bank günü müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- iddiaçının bu sahədəki iş təcrübəsi;
- iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;
- görüləcək işlərin dəyəri.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) **04 mart 2020-ci il saat 17:00-dək,** tender təklifini və təklifin bank təminatını isə **13 mart 2019-cu il saat 17:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **16 mart 2020-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır. İddiaçılar açılışın formatı ilə dövlət satınalmalarının vahid internet Portalında tanış ola bilərlər.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Tural Qurbanov - Tender komissiyasının üzvü, komitənin Beynəlxalq əməkdaşlıq şöbəsinin aparıcı məsləhətçisi (tel.: 4902408, dax. 322; faks: 4903359; elektron poçt ünvanı: tqurbanov@emdk.gov.az).

***Qeyd.*** *Tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 30 dekabr 2019-cu il və 30 yanvar 2020-ci il tarixli nömrələrində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə emallı naqillərin satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 18 fevral 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 19 fevral 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin AZ1025, Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti 37, “Demirçi Tower” 20-ci mərtəbə ünvanında yerləşən ofisinə fiber optik xətt üzərindən internet xidmətinin satın alınması məqsədi ilə keçirilmiş kotirovka sorğusu prosedurunun nəticələri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri rəhbər tutularaq ləğv edilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi

**İVAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Səhmdar Cəmiyyətinin sədri

**MİRİ QƏNBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Səhmdar Cəmiyyətinin sədri

**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Səhmdar Cəmiyyətinin sədri

**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

“Aqrarkredit” Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi “Azərkontrakt” Səhmdar Cəmiyyətinin sədri

**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri

**ETİBAR ƏLİ OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

“Qazax” Xeyriyyə İctimai Birliyinin İdarə Heyətinin üzvləri Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi

**İVAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6965
Sifariş 497
Qiyməti 40 qəpik